# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# NÖVBƏDƏNKƏNAR
# VII SESSİYASI İCLASININ

# PROTOKOLU № 74

*Milli Məclisin iclas salonu.*
*5 iyun 2026-cı il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 109 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.03 dəq.) |
| İştirak edir | 109 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
2. “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 150-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.
3. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).
4. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).
5. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).
6. Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
7. “Yaşıllıqların mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
8. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov, Səməd Seyidov, Əziz Ələkbərov, Əli Məsimli, Naqif Həmzəyev, Elman Nəsirov, Siyavuş Novruzov, Tural Gəncəliyev, Razi Nurullayev, Vüqar Bayramov, Nizami Səfərov

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.07 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**1. "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**2. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 150-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Əminə Ağazadə, Siyavuş Novruzov, Fazil Mustafa

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.50 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

**3. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Zahid Oruc, Razi Nurullayev, Vüqar Bayramov, Siyavuş Novruzov, Aydın Mirzəzadə, Vüqar Rəhimzadə, Ülviyyə Həmzəyeva

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**4. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov, Vasif Qafarov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**5. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 12.37 dəq.)

| | |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**7. “Yaşıllıqların mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Fatma Yıldırım, Razi Nurullayev, Naqif Həmzəyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 3-cü maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**8. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Aydın Hüseynov, Azər Əmiraslanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*5 iyun 2026-cı il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli həmkarlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük.

Azərbaycan Respublikası Milli Məclisinin növbədənkənar sessiyasını açıq elan edirəm.

*(Azərbaycan Respublikasının Dövlət Himni səslənir.)*

Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçin.

| **Qeydiyyat** | (saat 11.03 dəq.) |
|---|---|
| İştirak edir | 109 |
| Yetərsay | 83 |

Yetərsay var, biz iclasa başlayırıq.

Hörmətli həmkarlar, bildiyiniz kimi, Milli Məclisin sədri iyunun 1-dən 3-dək Serbiya Respublikasında işgüzar səfərdə olmuşdur. Səfərdə məqsəd Parlamentlərarası İttifaqın Qadın Parlamentarilərin Qlobal Konfransında iştirak etmək idi. Konfrans iyunun 2-də Serbiyanın paytaxtı Belqrad şəhərində keçirildi. Tədbir “Paritetə doğru irəliləyiş: Gender stereotipləri və

mənfi sosial normaların yaratdığı maneələrin aradan qaldırılması" mövzusuna həsr olunmuşdu.

Hörmətli deputatlar, konfransda etdiyim çıxışda mən Azərbaycanda qadınlar barəsində həyata keçirilən dövlət siyasətinə dair tədbir iştirakçılarına geniş məlumat verdim. Həyatın bütün sahələrində qadınların təmsilçiliyinin artırılması istiqamətində görülən işlərdən danışdım. O cümlədən Milli Məclisdə qadınların təmsil olunması və parlamentin fəaliyyətində qadın deputatların iştirakı ilə bağlı faktları nəzərə çatdırdım.

Qadınların dəstəklənməsi mexanizmlərinin inkişafında və gender bərabərliyi prinsiplərinin möhkəmlənməsində Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin imzaladığı sərəncamların, milli fəaliyyət planlarının və dövlət proqramlarının rolunu da xüsusi qeyd etdim.

Hörmətli həmkarlar, mən öz çıxışımda digər məsələlərlə yanaşı, onu da qeyd etdim ki, real gender bərabərliyinin əldə olunması təkcə qanunvericiliyin təkmilləşdirilməsindən asılı deyildir, ictimai şüurda dərin və köklü dəyişikliklər baş verməlidir. Hüquq bərabərliyinə nail olmaq yolunda ən böyük problem isə qadınların imkanlarını məhdudlaşdıran gender stereotipləri və neqativ sosial normalardır.

Onu da deyim ki, nümayəndə heyətinin üzvü olan Milli Məclisin deputatları konfrans çərçivəsində keçirilən tədbirlərdə fəal iştirak etdilər.

Hörmətli deputatlar, səfər çərçivəsində Parlamentlərarası İttifaqın və ATƏT-in Parlament Assambleyasının prezidentləri, habelə Parlamentlərarası İttifaqın yeni seçilmiş baş katibi, vitse-prezidenti, İcraiyyə Komitəsinin üzvü və Qadın Parlamentarilər Forumu Bürosunun sədri, eləcə də Serbiya və Zimbabve parlamentlərinin sədrləri, Mərakeş və Mavritaniya parlamentlərinin sədr müavinləri ilə mənim görüşlərim oldu. Mən 9 görüş

keçirdim. Görüşlərdə beynəlxalq parlament təşkilatları çərçivəsində iş birliyi, həmçinin qanunvericilik orqanları arasında ikitərəfli əməkdaşlıq məsələləri nəzərdən keçirildi. Qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

Hörmətli həmkarlar, səfər zamanı Belqradın Taşmaydan parkında nümayəndə heyəti ilə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət etdik və biz Ulu Öndərin əziz xatirəsini dərin ehtiramla yad etdik.

Hörmətli deputatlar, hesab edirəm ki, Serbiya Respublikasına işgüzar səfər uğurlu oldu və mən nümayəndə heyətinin üzvlərinə öz minnətdarlığımı bildirirəm.

İndi isə, hörmətli həmkarlar, xahiş edirəm, gündəliyimizə münasibət bildirəsiniz. Gündəlik sizdə var. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.07 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik qəbul edildi, çox sağ olun.

Hörmətli həmkarlar, həmişə olduğu kimi, bizim 30 dəqiqəmiz var. Gündəliklə, ya da gündəmdə olan məsələlərlə bağlı kim çıxış etmək istəyirsə, buyursun, yazılsın. 10 nəfər çıxış eləyə biləcək. Buyurun.

Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov.** Hörmətli sədr, əziz həmkarlar, bir neçə gün öncə ABŞ Prezidenti tərəfindən öz xətti ilə yazılaraq Azərbaycan dövlət başçısına ünvanlanmış səmimi müraciəti yayıldı. Aydındır ki, bu, sadəcə,

diplomatik etiket deyil, çünki Tramp siyasi karyerası boyu yalnız qətiyyətli, öz maraqlarını qoruyan və real nəticə göstərən liderlərə xüsusi rəğbət bəslədiyini gizlətməyib. Yəni dünyanın ərazicə ikinci böyük dövlətinin – Kanadanın rəhbərinə "qubernator" deməkdən çəkinməyən ABŞ Prezidentinin cənab İlham Əliyev barədə müsbət qeydləri yalnız müstəqil iradə sahibi olan güclü dövlət rəhbəri faktoruna əsaslanır.

Tramp haqlı olaraq cənab İlham Əliyevə mürəkkəb bir regionda geosiyasi balansları ustalıqla idarə edən, qlobal arenada diktə edə bilən, sarsılmaz iradəyə malik bir strateq kimi baxır. Bilirsiniz ki, cənab Trampın "America First" doktrinası digər dövlətlərin də müstəqil siyasət yürütməsinə hörmətlə yanaşmanı təmin edir. Bu qiymətləndirmə də göstərir ki, Tramp üçün cənab İlham Əliyev böyük güclərin toqquşması nəticəsində yaranan vəziyyətdə tamamilə müstəqil, yalnız Azərbaycan xalqının və dövlətinin maraqlarına xidmət edən, böyük oyunçuların iradəsinə qarşı öz oyununu qura bilən dahi bir dövlət xadimidir.

Yanaşmalarını həmişə böyük sövdələşmələr və real iqtisadi faydalar üzərində quran Trampın jesti, əslində, Azərbaycanın Avropanın enerji və ticarət xəritəsini dəyişdirən layihələri fonunda cənab İlham Əliyevi regionda yeni reallıqlar və iqtisadi inteqrasiya imkanları yaradan böyük güc kimi tanımasının rəsmi etirafıdır. Həqiqətən də, yalnız son 1 həftənin icmalına baxmaq bir daha başa düşmək üçün kifayətdir ki, Azərbaycan tarixinin heç bir dövründə bu qədər müstəqil, bu qədər suveren və bu qədər güclü olmayıb.

"Bakı Enerji Həftəsi"nin açılışında möhtərəm Prezidentin tarixi çıxışına diqqət edin. Bütövlükdə, regionun tarixində heç bir ölkənin başçısı, heç bir xalqın lideri bu qədər ötkəm danışa bilməyib. Mən "ötkəmlik" deyəndə

pafosdan və populizmdən uzaq, milli iradəyə söykənən, real müstəqillikdən və suverenlikdən güc alan, real əsaslara söykənən siyasi qətiyyəti nəzərdə tuturam. Çünki, sadəcə, pafosa qalsa, Bakıda Prezident Aparatının pəncərəsindən baxmağa belə qorxan bir hakimiyyətin, cəmi bircə aya ən güclü ordu quracağını deyib, yun fabrikinin direktoru qarşısında aciz qalan bir prezidentin, Çinə, Təbrizə bayraq sancmaq vəd edib, ərazilərimizin 20 faizindən çoxunu üçrəngli bayrağımıza həsrət qoyan bir iqtidarın vədlərinə şahidlik etmişik. Ona görə də Azərbaycan xalqı reallığı saxta vədlərdən ayırmağı bacarır.

Nə qədər paradoksal görünsə də, güc və imkanlarımızın artmasının bir indikatoru da Qərbin anti-Azərbaycan mərkəzləridir. Son günlər avrostrukturlarda Bakı əleyhinə fəaliyyətlər, o cümlədən özünü beynəlxalq ekspert kimi təqdim edən, əslində isə, çoxdan arxivə atılmış adamların “insan hüquqları” pərdəsi altında fəallaşması, o cümlədən AXC–Müsavat ünsürlərinin aktivləşmə cəhdləri bir daha göstərir ki, doğru yoldayıq. Amma özünüz baxın, cənab İlham Əliyevi regionun taleyini dəyişən, böyük masalarda öz şərtlərini qəbul etdirən və müasir tarixin gedişatına yön verən qüdrətli bir dövlət rəhbəri kimi qəbul edən Trampın sözü qarşısında bu bitmiş muzdluların sözü nə qədər əhəmiyyətlidir?

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Bəhruz müəllim. Siz çox vacib bir məsələyə toxundunuz.

Hörmətli həmkarlar, mən indi sözü Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri və Azərbaycan-Amerika Birləşmiş Ştatları parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri kimi hörmətli Səməd müəllimə verirəm. Buyurun.

**Səməd Seyidov.** Çox sağ olun, hörmətli xanım sədr. Doğrudan da, Azərbaycanın apardığı siyasət bu gün dünyada ən yüksək səviyyədə qəbul olunur. Heç də təsadüfi deyil ki, son bir neçə gün ərzində dünyanın aparıcı siyasi liderləri Azərbaycan Prezidentinə müraciət edirlər, təbrik edirlər, siyasətini dəstəkləyirlər və bu siyasətlə bir olduqlarını dünyaya bəyan edirlər.

Cənab Trampın göndərdiyi təbrik məktubu, birbaşa 907-nin dayandırılması ilə bağlı göndərdiyi xüsusi məktub, Böyük Britaniyanın Baş nazirinin, İtaliyanın, başqa ölkələrin aparıcı siyasətçilərinin bu gün Azərbaycan Prezidentinə dəstək olmaları heç də təsadüfi deyil. Azərbaycanın apardığı siyasət bu gün öz təntənəsini yaşayır.

Biz Amerika Birləşmiş Ştatları ilə münasibətlərimizi tamamilə başqa bir müstəviyə qaldırdıq. Biz münasibətləri heç vaxt Amerika Birləşmiş Ştatları ilə strateji əməkdaşlıq səviyyəsində qurmamışdıq. Biz konstruktiv yanaşma ilə bağlı münasibətimizi həmişə göstərmişik. Ancaq çox təəssüflər olsun ki, dünyanın ən aparıcı gücü tərəf tutmuşdur.

Bu gün isə tam əksinədir. Bu gün Trampın Azərbaycanla bir yerdə, hansı isə ümumi tədbirdə deyil, böyük layihələrin həyata keçirilməsində iştirakı tamamilə başqa bir mənzərə yaradır. Bunun səbəbi nədir? Yeni reallıq, Azərbaycan Respublikası Prezidentinin apardığı siyasət, Prezidentimizin rəhbərliyi altında Azərbaycan xalqının əldə etdiyi nailiyyətlər. Bunlar hamısı dünyanı faktiki tamamilə başqa bir mərhələyə yüksəltmişdir və dünyanın cavab verə bilmədiyi suallara cavab vermişdir.

Bu gün Amerika Birləşmiş Ştatları ilə strateji əməkdaşlıq yalnız Azərbaycan üçün deyil, regionumuz üçün tamamilə başqa perspektivlər açır. Heç də təsadüfi deyil ki, Amerika Birləşmiş Ştatlarının rəsmiləri

Ermənistana gəlir, əlaqələr qururlar. Onlar bu əlaqələri Azərbaycanın qabiliyyəti əsasında, qalibiyyəti əsasında qurmağa nail olurlar. Ona görə ki, bu regionu dəyişdirmiş, bu regionu tamamilə yeni bir mərhələyə yüksəltmiş Azərbaycan olmuşdur. Hesab edirəm ki, bu da davam etdiriləcək.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, mən düşünürəm ki, Bəhruz müəllimin, Səməd müəllimin dedikləri bizim ümumi fikrimizdir.

Əziz Ələkbərov. Buyurun.

**Əziz Ələkbərov.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, media nümayəndələri. Bildiyiniz kimi, Azərbaycan dilinin qorunması, istifadəsi və inkişafı məsələsi dövlət siyasətimizin tərkib hissəsidir və bununla bağlı Ulu Öndər Heydər Əliyevin və möhtərəm Prezidentimiz İlham Əliyevin bir sıra fərman və sərəncamları var.

Xüsusi ilə Prezident İlham Əliyevin tarixi toponimlərimizin saxtalaşdırılmasına qarşı çıxışları zamanı işlətdiyi “Vardenis yox, Basarkeçər”, “Yerasx yox, Arazdəyən”, “Sevan yox, Göyçə” ifadələri hər kəsin yadındadır. Əslində, bu, təkcə bir neçə toponimimizin tarixi adının bərpasına çağırış deyil, zaman-zaman saxtalaşdırmaya məruz qalmış bütün tarixi toponimlərimizə yeni yanaşma metodudur.

Bu baxımdan, mən diqqəti daha iki tarixi toponimimizin düzgün yazılışı məsələsinə çəkmək istəyirəm. Həmin toponimlərin saxtalaşdırılmış şəkildə işlənməsinə heç bir hüquqi prosedur yoxdur. Bunlardan biri İrəvan, ikincisi isə, Tiflis şəhər adlarıdır. Bütün elmi ədəbiyyatda ümumi şəkildə deyilir ki, 1936-cı ildə İrəvan şəhərinin adı

dəyişdirilib Yerevan qoyuldu. Mən Azərbaycan tarixşünaslığında bu məsələyə dəqiqlik gətirmək istəyirəm.

1936-cı il avqustun 17-də SSRİ Mərkəzi İcraiyyə Komitəsi sədr Mixail Kalininin imzası ilə "Yaşayış məntəqələrinin adlarının düzgün yazılışı haqqında" adlı qərar qəbul edib. Qərarda 3-ü Abxaziyada, 2-si Acariyada, 2-si Türkmənistanda, 12-si Gürcüstanda və 1-i Ermənistanda olmaqla, 20 yaşayış məntəqəsinin adının yazılışına düzəliş olunub. Maraqlısı budur ki, həmin qərarda o 20 toponimdən yalnız 3-nün adının ikili, yəni həm əvvəlki, həm də yeni variantda işlənməsi məqbul sayılıb. Onlardan biri Ermənistanda İrəvan və ya Yerevan, ikincisi, Türkmənistanda Neftedağ və ya Nebitdağ, üçüncüsü isə, Gürcüstanda Tiflis və ya Tbilisi toponimləridir. Biz indi İrəvanın tarixi İrəvan adını bərpa etmişik, uğurla da işlədirik. Bu, təkcə bizim tarixi haqqımız deyil, həm də həmin qərarda təsbit olunub.

Digər iki toponimə gəldikdə isə, onları hansı variantda işlətməyimiz də həmin qərarda bizim öz ixtiyarımıza buraxılıb. Əgər belədirsə, tarixi adlarımıza niyə sahib çıxmırıq?! Mən həmin sənədi bu gün media nümayəndələrinə paylayacam və onlardan tarixi toponimlərimizin qərarda təsbit olunan tarixi variantında yazılmasına əməl etmələrini xahiş edəcəyəm. Gəlin, bütün müstəvilərdə dilimizin saflığını qoruyaq.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Əli Məsimli. Buyurun.

**Əli Məsimli.** Çox sağ olun, hörmətli sədr. Bu ilin mart ayından başlayaraq intensiv yağışlar həm Bakıda, həm də regionlarda bir sıra fəsadlar yaradıb. Bununla əlaqədar olaraq xüsusi Prezident sərəncamı ilə 86 milyon manata qədər vəsait ayrılıb. Bu, hesab edirik ki, həmin

problemlərin həlli və bir daha təkrar olunmaması üçün çox vacib bir vəsaitdir. Bu sərəncam aprel ayında verildi. May ayında da intensiv yağışlar həmin fəsadların coğrafiyasını xeyli genişləndirib, Şəki–Zaqatala zonasında, o cümlədən Şəkidə və Qaxda da xeyli dərəcədə fəsadlar yaradıb. Məsələn, Şəkinin Cunud, Şin, Baş Layısqı kəndlərinə xeyli ziyan vurub, Baş Zəyziddə iki körpünü bütöv aparıb.

Eyni zamanda, Qaxın da Zəyəm, Tasmalı, Qarabağlı kəndlərində təsərrüfatlara xeyli ziyan dəyib, həm fındıq, həm taxıl sahələrini, həm də tərəvəz məhsullarını yararsız hala salıb. Bu istiqamətdə Aqrar Sığorta Fondu müsbət işlər görür və bunu yüksək qiymətləndirmək lazımdır. Amma dəyən ziyanın həcmi ilə, onun ölçüləri ilə Aqrar Sığorta Fondunun maliyyə imkanlarını ölçəndə bu istiqamətdə əlavə dəstəyin olması da çox vacibdir. Mən hesab edirəm ki, sığorta sistemini müxtəlif üsullarla daha geniş formada elə ortaya qoymaq lazımdır ki, hər dəfə bu fəsadlar olanda dövlətə bu istiqamətdə ziyan dəyməsin və həmin sığorta mexanizmi tam gücü ilə işləyə bilsin. Ona görə də Aqrar Sığorta Fondunun vəsaitindən başqa, sığorta mexanizmi vasitəsi ilə əlavə vəsaitlərin də ayrılmasını vacib hesab edirəm.

Yerli strukturların da bu istiqamətdə gördüyü işi müsbət qiymətləndirirəm. Amma məsələ bundadır ki, yerli strukturlar problemin həlli istiqamətində vacib addımlar atırlar, amma növbəti həftədə yenə intensiv yağışlar yağanda həmin problemlər təkrar olunur. Məsələn, körpünün uçması və sair kimi hallar. Əgər yerli strukturlar gücündə olan məsələləri həll edirsə, bu, çox müsbətdir. Amma körpülərin uçması və sair hallar mərkəzləşdirilmiş qaydada vəsaitlərin ayrılmasını tələb edir. Bu istiqamətdə yenidən vəsait ayrılan zaman, ümumiyyətlə, Şəki–Zaqatala

zonasına, o cümlədən Şəkiyə və Qaxa dəyən ziyanın da nəzərə alınmasını vacib hesab edirik.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Naqif Həmzəyev. Buyurun.

**Naqif Həmzəyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Şəhərdaxili, həm də bölgələrarası marşrutlarda uzunmüddətli sürücülük fəaliyyəti həyata keçirən, peşəsi sürücü olan şəxslər avtomobil yollarının ən fəal iştirakçılarıdır. Peşəkar sürücülər üçün yolda keçirilən vaxt ortalama bir adi sürücüyə nisbətən 5-8 dəfə çoxdur. Xüsusi ilə taksi sürücülüyü Azərbaycanda aşağı və orta gəlirli əhali təbəqəsi üçün başlıca dolanışıq vasitəsidir. Məşğulluq statistikasına görə, ölkədə fəal taksi sürücülərinin böyük əksəriyyəti ailəsinin yeganə gəlir sahibidir. Belə bir şəraitdə sürücülük hüququnun itirilməsi yalnız fərdi problem olaraq qalmır, ailənin bütün üzvlərini əhatə edən ağır iqtisadi problemə çevrilir.

Taksi sürücülərinin və ümumi sürücülərin qarşılaşdığı problemlərin bəzilərinə toxunmaq istərdim. Sürücülər tərəfindən yolda keçirilən uzun saatlar nəticəsində kiçik texniki pozuntular üçün toplanılan ballar sürətlə iyirmilik həddə çatır. Hüquqdan məhrumetmə müddəti ərzində sürücülər gəlir əldə edə bilmir, ailə öhdəliklərini yerinə yetirə bilmirlər. Bir sıra hallarda işəgötürən şirkətlər sürücülük hüququnu itirmiş sürücüləri işdən çıxarmaq məcburiyyətində qalırlar. Qısamüddətli hüquq itkisi belə bəzən uzunmüddətli işsizliyə, kredit borclarına və ailə böhranına gətirib çıxara bilir.

20 ballıq hədd əsas işi sürücü olanlar üçün xüsusi ilə qeyri-ədalətli hesab edilməkdədir. Adi sürücü hüququnu itirsə, alternativ nəqliyyat vasitəsindən istifadə edə bilir. Taksi sürücüsü və ya peşəsi sürücü olanlar isə hüquqlarını itirsələr, peşələrini, gəlirlərini və bir çox halda ailələrinin maddi rifahını itirmiş olurlar. Bu dediyim problemi həll etmək üçün hüquqdan məhrumetmə həddinin 20 baldan 40-50 bala qaldırılmasını və yalnız kobud pozuntular zamanı bal kəsilməsinin tətbiqini təklif edirəm. Ən pis halda isə ilk dəfə yüngül qayda pozuntuları zamanı yalnız cərimə ilə kifayətlənmək lazım olacağını düşünürəm.

Eyni zamanda, qeyd etmək istəyirəm ki, yol-hərəkət qaydaları ancaq açıq, görünən, standartlaşmış, nişanlanma sistemi mövcud olduğu halda, ədalətli şəkildə tətbiq edilə bilər. Bu çərçivədə aşağıdakıların tətbiq edilməsini xahiş edirəm.

Gəncə şəhərində və paytaxtdan kənarda olan şəhər və rayonlarda yolların xətləmə işlərinin daha keyfiyyətli aparılması vacibdir. Bu sahədə çox ciddi nöqsanlar var. Bunların aradan qaldırılmasını xahiş edirəm.

Eyni zamanda, hasarlanan, silinən, görünməz halda olan nişanların inventarizasiyası aparılmalı və vaxtında yenilənmələr edilməsi nəzarətə götürülməlidir. İnfrastruktur tamamlanmamış yollarda kameralar vasitəsi ilə cərimə tətbiqi müvəqqəti dayandırılmalıdır. Sürücülər nişanlama çatışmazlığını bildirə bilsin deyə, asan, əlçatan şikayət mexanizmi yaradılmalıdır.

Xanım sədr, mən sürücülərin “əl-üzünü yumaq” istəmirəm. Onların da günahı var, ancaq açıq deyək, qaydaların yazılmasında da, çox təəssüf ki, bizim də günahımız var. Xüsusi ilə də Bakıdan kənar yerlər...

**Sədrlik edən.** Sağ olun.

Elman Nəsirov. Buyurun.

**Elman Nəsirov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Hörmətli xanım sədr, fürsətdən istifadə edib Sizi və nümayəndə heyətini Serbiya Respublikasına uğurlu səfəriniz münasibəti ilə təbrik edirəm.

Fikrimi ölkə Prezidenti cənab İlham Əliyevin məşhur bir ifadəsi ilə başlamaq istəyirəm: "Azərbaycan dünya miqyasında elə də böyük dövlət deyil, amma sözünün məna və çəkisi böyükdür". Fikir verirsiniz, cənab Prezident "Azərbaycan kiçik dövlətdir" ifadəsini işlətmir. Bəli, Azərbaycan dünya miqyasında elə də böyük dövlət deyil və onun sözünün məna və çəkisinin nə qədər böyük olduğunu biz iyun ayının 1-dən ölkəmizdə başlanan "Bakı Enerji Həftəsi" çərçivəsində gördük. Bu tədbir çərçivəsində cənab Prezidentin Bakı Enerji Forumunda çıxışı strateji əhəmiyyətli məsələlərin dilə gətirilməsi və beynəlxalq ictimaiyyətə ünvanlanması ilə yadda qaldı.

Bir daha bu həqiqət üzə çıxdı ki, bu gün dövlətlərin milli təhlükəsizliyində enerji təhlükəsizliyi ən vacib elementdir. Bəlkə də birinci yerdə dayanan məsələdir. Dövlətimizin başçısı dəfələrlə söyləyib ki, bizim üçün, ilk növbədə, enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi və azad rəqabət siyasətidir.

İkincisi, bu, istehsalçı, istehlakçı və tranzit ölkələr arasında balansın yaradılması siyasətidir. Burada bütün tərəflər uduşlu vəziyyətdədir.

Üçüncü və çox vacib məqam odur ki, heç bir halda enerji siyasətin əlində alət olmamalıdır. Enerji və siyasət bir-birindən ayrı olmalıdır. Dövlətimiz də bu siyasəti həyata keçirir. Cənab Prezidentin forumda çıxışında qeyd etdiyi kimi, artıq ölkəmiz dünyanın 16 ölkəsinə qaz ixracını

həyata keçirir. Onlardan 12-si Avropa ölkəsidir, 10-u hətta Avropa İttifaqı ölkəsidir. Azərbaycan hətta Suriyaya qədər qaz təchizatını həyata keçirir. Bu baxımdan Azərbaycan çox nümunəvi bir dövlətdir.

2027-ci ildə Azərbaycan Avropaya 20 milyard kubmetr qaz satışını həyata keçirmək istəyir. Cənab Prezident həm bir neçə gün bundan əvvəlki çıxışında, həm də digər çıxışlarında xoş bir müjdə də verdi ki, yaxın 1-2 il ərzində Azərbaycanda əlavə 10-15 milyard kubmetr qazın istehsalı gözlənilir. Eyni zamanda, bizim 2032-ci ilə qədər 8 giqavatlıq yaşıl enerji istehsal etmək potensialımız var. Bu o deməkdir ki, doğrudan da, Azərbaycan bugünkü dünyamızda enerji təhlükəsizliyi baxımından müstəsna rol oynayır. Dünyanın fövqəldövlətinin Prezidenti Trampın Azərbaycan Prezidentinə təbrik məktubunda da bütün bu məqamlar öz əksini tapıb.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Elman müəllim.

Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, mən də uğurlu səfər münasibəti ilə həm Sizi, həm də həmkarlarımızı təbrik edirəm. Artıq hamıya bəllidir ki, Azərbaycan beynəlxalq tədbirlərin keçirilməsi üçün bir məkandır. Bu, Azərbaycanın iqtisadi inkişafının, Azərbaycanda olan ictimai-siyasi sabitliyin, təhlükəsizliyin və xalq–iqtidar birliyinin bariz nümunəsidir ki, bir çox tədbirlər Azərbaycanda keçirilir. Təkcə keçən ayın axırı və bu ayın əvvəlində dünya əhəmiyyətli iki böyük tədbirin Azərbaycanda keçirilməsi, dünya ölkələrindən çoxlu sayda nümayəndələrin iştirakı, Azərbaycanda olan ictimai-siyasi sabitliyin, o

cümlədən Azərbaycanın dünyada apardığı siyasətin bir daha vurğulanması buna bariz nümunədir.

Hər birimiz hər gün "CNN", "BBC", "Euronews" kanallarını açarkən görürük ki, iri binalar, məktəblər, zavodlar və xəstəxanalar ətrafımızda yerlə-yeksan olunur. Azərbaycan televiziyaları isə göstərir ki, vətəndaşlarımız işğaldan azad olunmuş ərazilərimizdə ən yüksək səviyyədə tikilmiş mənzillərə köçürülürlər. Hər gün biz bu siyahını eşidirik.

Mən xatırlayıram, biz 44 günlük Vətən müharibəsi dövründə gözləyirdik ki, cənab Prezident hər gün televiziyada azad edilmiş kəndləri, şəhərləri sadalasın. Dövlət başçımız hər gün bu adları sadalayırdı. İndi də hər gün televiziyanı açanda görürük ki, bizim nə qədər vətəndaşımız rahat həyat şəraitinə qovuşur. Budur dövlətin, Prezidentin liderliyi, apardığı siyasət və xalqına, millətinə göstərdiyi xidmət. O baxımdan mən hesab eləyirəm ki, bunu dünya miqyasında da görürlər. Azərbaycanın apardığı bu uğurlu siyasətə dostlarımız sevinir, düşmənlərimiz isə maneçilik törətmək istəyirlər. Lakin ədalətli işin heç birinin qarşısı alına bilməz. Bu gün Azərbaycan bir ədalət simvoludur. Dünyada ədaləti təmsil edən, dünya ölkələrinə, dünya qanunvericiliyinə, BMT Nizamnaməsinə, ATƏT-in proqramlarına ədalət təklif eləyən bir ölkədir. Bunlar Azərbaycandan öyrənilməlidir.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Tural Gəncəliyev. Buyurun.

**Tural Gəncəliyev**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Kibertəhlükəsizlik Agentliyinin yaradılması haqqında sənəd imzalanmışdır.

Həmin sənəd ölkəmizdə kibertəhlükəsizlik və fərdi məlumatların mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi, dövlət nəzarətinin səmərəliliyinin artırılması və rəqəmsal təhlükəsizliyin daha etibarlı təmin olunması istiqamətində vacib əhəmiyyət daşıyan fərmandır.

Müasir dövrdə təhlükəsizlik anlayışı artıq yalnız hərbi və ya fiziki təhlükələrlə məhdudlaşmır. Dövlətin, iqtisadiyyatın, cəmiyyətin fəaliyyəti getdikcə daha çox rəqəmsal texnologiyalardan asılı hala gəlir. Bu isə kiberməkanda yaranan riskləri və təhdidləri milli təhlükəsizliyin əsas məsələlərindən birinə çevirir.

Hörmətli həmkarlar, artıq bizim həyatımıza onun tərkib hissəsi olaraq “kibertəhlükəsizlik”, “kibervətən”, “kibersuverenlik”, “kibersərhədlər” kimi terminlər daxil olmaqdadır. Milli Kibertəhlükəsizlik Agentliyinin yaradılması Azərbaycanın kibertəhlükəsizlik sahəsində institusional imkanlarını daha da gücləndirəcək, dövlət informasiya sistemlərinin infrastrukturunun qorunmasını təmin edəcək, kibercinayətkarlığa və kiberhücumlara qarşı mübarizədə fəaliyyətin daha səmərəli əlaqələndirilməsinə şərait yaradacaqdır. Bu addım, eyni zamanda, dövlət qurumları arasında da əməkdaşlığın genişlənməsinə və təcrübə mübadiləsinin intensivləşməsinə xidmət edəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar, media nümayəndələri. Deputatı olduğum İmişli rayonunda vətəndaşlarla görüşən zaman, təəssüflə qeyd etməliyəm ki, hər ay 3-4 yanmış evə, obyektə baş çəkməli oluram. Bu, artıq təsadüf deyil, ciddi sosial problemdir. Hər dəfə

həmin ailələrə eyni sualı verirəm: “Əmlak sığortanız varmı?” Eyni cavabı eşidirəm ki, “yox”. Ən düşündürücü məqam isə odur ki, bu sığortanın illik məbləği cəmi 40-50 manat civarındadır. Yəni bir ailənin 1 illik təhlükəsizliyi çox kiçik bir məbləğlə təmin oluna bilər. Amma nəticədə insanlar bütün əmlakını itirir, sonra isə dövlətin və cəmiyyətin üzərinə əlavə yük düşür. Bu vəziyyət göstərir ki, burada təkcə vətəndaş məsuliyyəti deyil, həm də sistemli yanaşma çatışmır. Hesab edirəm ki, əmlak sığortasının yenidən məcburi fazaya keçirilməsi vacibdir. Bu addım həm vətəndaşların məsuliyyətini artıracaq, həm də fövqəladə hallarda dövlətin üzərinə düşən maliyyə yükünü azaldacaq. Biz insanları faciədən sonra deyil, faciədən əvvəl qorumaq üçün əmlak sığortasını yenidən məcburi fazaya keçirməliyik.

Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, mən də Sizi və nümayəndə heyətini uğurlu səfər münasibəti ilə təbrik edirəm. Cənab Prezident tərəfindən müəyyənləşdirilən strategiyaya uyğun olaraq, Azərbaycan parlamentinin diplomatiyası inkişaf edir və Azərbaycanın xarici siyasətinə xüsusi töhfə verir.

Həmkarlarımın da qeyd etdiyi kimi, bu həftə Azərbaycan regionun ən böyük enerji tədbirlərindən birinə ev sahibliyi etdi. “Bakı Enerji Həftəsi”nin rəsmi açılış mərasimində çıxış edən cənab Prezident bir sıra mühüm strateji məqamlara toxundu. Cənab Prezidentin qeyd etdiyi məqamlardan biri də ABŞ Prezidenti Donald Trampın nəzakətli məktubunda məhz tədbirin əhəmiyyətinin əks olunması ilə bağlı idi. “Bakı Enerji Həftəsi” çərçivəsində ilk dəfə olaraq Azərbaycan–Amerika Birləşmiş Ştatları iqtisadi

dialoqu təşkil olundu. Bu iqtisadi dialoqun nəticəsi olaraq imzalanan müqavilələr iki ölkənin münasibətlərinin ənənəvi enerji tərəfdaşlığından strateji, şaxələndirilmiş və süni intellektlə yanaşı, yüksək texnologiyalı iqtisadi müttəfiqliyə daxil olduğunu bildirib. Qeyd edim ki, imzalanmış müqavilələrin dəyəri 7,5 milyard dollardan çox idi. Bu müqavilələr, bir tərəfdən, ünvanlı, digər tərəfdən, yüksək səviyyəli və strateji tərəfdaşlığa çevrilən münasibətləri xarakterizə edir.

Hörmətli xanım sədr, qeyd etmək istərdim ki, iki ölkə arasında münasibətlərin inkişaf etməsi Azərbaycanla Amerika Birləşmiş Ştatları arasındakı ticarət dövriyyəsində də öz əksini tapır. Belə ki, 2026-cı ilin birinci rübündə iki ölkə arasında ticarət dövriyyəsi 2,2 dəfə artaraq 296 milyon dollara yüksəlib. Bu ondan xəbər verir ki, strateji tərəfdaşlıq iqtisadi əlaqələrin və ticarət dövriyyəsinin artmasında özünü göstərir.

Amerika Birləşmiş Ştatları ilə bağlanmış müqavilələr həm də süni intellekt və rəqəmsal texnologiyanın inkişafı baxımından vacibdir. Çünki bir tərəfdən, müqavilələr bu istiqamətə daha çox sərmayənin, eləcə də texnologiyanın cəlb edilməsinə imkan yaradacaq, digər tərəfdən, iki ölkə arasında süni intellektlə bağlı işçi qrupunun yaradılması və fəaliyyət göstərməsi də praktik olaraq bu istiqamətdə ABŞ dəstəyinin artacağından xəbər verir. Nəzərə alsaq ki, qlobal rəqəmsal iqtisadiyyatın həcmi 16 trilyon dollardan 24 trilyon dollara qədər yüksəlib, bunun 25 faizi Amerika Birləşmiş Ştatlarının payına düşür. Bu əməkdaşlıq, eyni zamanda, Azərbaycanın regional süni intellekt habına çevrilməsinə imkan verəcək.

Həmçinin Azərbaycan Davos İqtisadi Forumunun 4-cü sənaye inqilabı mərkəzinə ev sahibliyi edən ölkədir. Bu baxımdan iqtisadi şaxələnmə ekosistemin keyfiyyətcə yeniləşməsinə gətirib çıxaracaq.

Bütövlükdə, iki ölkə arasındakı münasibətlər yalnız enerji deyil, qeyri-enerji sahəsində əməkdaşlığın güclənməsinə və strateji tərəfdaşlığın möhkəmlənməsinə xidmət edəcək.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Nizami Səfərov. Buyurun.

**Nizami Səfərov**. Hörmətli xanım sədr, hörmətli deputatlar, dünyanın rəqəmsal arxitekturasının sürətlə dəyişdiyi bir dönəmdə kibertəhlükəsizliyin təmin edilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Kritik informasiya infrastrukturunun çeşidli təhdidlərdən qorunması Azərbaycanın rəqəmsal suverenliyinin təmin edilməsinin həlledici komponentidir. Kiberməkanda milli maraqların mühafizə olunması, informasiya təhlükəsizliyi sahəsində vahid dövlət siyasətinin həyata keçirilməsi və informasiya təhlükəsizliyinin texnoloji infrastrukturunun yaradılması istiqamətində məqsədyönlü işlər ardıcıl formada aparılır. Bu işlərin yol xəritəsini 2023-cü il avqustun 28-də dövlət başçısının fərmanı ilə təsdiq olunan “Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyinə dair 2023–2027-ci illər üçün Strategiya” təşkil edir. Fundamental əhəmiyyətə malik olan bu sənəddə müəyyən edilən prioritetlər sırasında informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair normativ hüquqi bazanın müasir çağırışlara uyğun olaraq, təkmilləşdirilməsini və institusional bazanın inkişaf etdirilməsini ayrıca olaraq qeyd etmək istərdim. Milli qanunvericilik sistemi çərçivəsində informasiya təhlükəsizliyinə, kibertəhlükəsizliyə və qlobal trendlərə cavab verən bir çox hüquqi sənədlər mövcuddur. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli Fərmanı ilə təsdiq olunan

"Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"nda hazırlanması və qəbulu nəzərdə tutulan Azərbaycan Respublikasının rəqəmsal məcəlləsi son dərəcədə əhəmiyyətli rol oynayacaq. Cənab Prezidentin 2026-cı il iyunun 2-də imzaladığı fərmana əsasən ölkədə kibertəhlükəsizlik sahəsində tənzimləməni, nəzarəti və digər mühüm funksiyaları həyata keçirən Milli Kibertəhlükəsizlik Agentliyinin yaradılması müvafiq sahədə həddindən artıq əhəmiyyətli institusional addım olmuşdur.

Həmçinin qeyd etmək istərdim ki, kibertəhlükəsizliyin təmin olunması və kibercinayətkarlıqla mübarizə sahəsində formalaşan beynəlxalq hüquqi standartların və qabaqcıl beynəlxalq təcrübələrin implementasiyası sahəsində də dövlətimiz səmərəli addımlar atır. Bunun bariz nümunəsi kimi, "Kibercinayətkarlıq haqqında" Budapeşt Konvensiyasının və bu yaxınlarda, 2026-cı il fevralın 10-da qlobal miqyasda vahid beynəlxalq hüquqi bazanı formalaşdıran BMT-nin kibercinayətkarlığa qarşı Konvensiyasının təsdiq olunması qeyd edilməlidir. Ən maraqlı məqamlardan biri də ondan ibarətdir ki, Azərbaycan Birləşmiş Millətlər Təşkilatının Konvensiyasını təsdiq edən dövlətlər sırasında öndə gedir.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, kim yazılmışdısa, 10 nəfər – hamı çıxış etdi. Mən hamıya təşəkkür edirəm. Biz gündəliyin məsələlərinə keçirik.

Bildiyiniz kimi, bu gün gündəliyimizdə 8 məsələ var. 1-ci məsələ "Diplomatik xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bilirsiniz ki, bu gün qanun layihəsinin üçüncü oxunuşudur. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində

baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Əli Hüseynliyə söz vermək istəyirəm. Əli müəllim, buyurun.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli deputat həmkarlar, bu layihə Milli Məclisdə birinci və ikinci oxunuşlarda müzakirə edilərək qəbul edilmişdir. Biz fevral ayında "Dövlət qulluğu haqqında" Qanuna böyük bir paket dəyişikliklər etmişdik. Əməkhaqqının ödənilməsi sistemi tamamilə müasirləşdirilmişdir, amma diplomatik xidmətdə çalışan orqanlara şamil olunmamışdı. Bu layihə faktiki olaraq onun davamıdır və mahiyyəti üzrə eynidir. Həmkarlarımdan üçüncü oxunuşda da səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

Hörmətli həmkarlar, bu qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılıb. Hörmətli Səməd Seyidova söz verirəm. Səməd müəllim, buyurun.

**Səməd Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli Əli müəllim layihəni geniş, ətraflı təqdim etdi. Xarici İşlər Nazirliyində bu qanunun qəbul olunmasını səbirsizliklə gözləyirlər. Komitəmiz tam lehinədir, ona görə xahiş edirəm, səsə qoyasınız.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, üçüncü oxunuşdur. Mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
| --- | --- |
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Biz növbəti məsələyə keçirik. Bu məsələ “Korrupsiyaya qarşı mübarizə haqqında” Qanunda dəyişiklik edilməsi barədə 2025-ci il 7 mart tarixli Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Qeyd edim ki, layihə uyğunlaşdırma xarakteri daşıyır, ona görə də bir oxunuşda qəbul ediləcək. Xatırladım ki, bu, “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun tələbidir.

Qanun layihəsinə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Mən məsələyə dair məlumat vermək üçün komitə sədri hörmətli Musa müəllimə söz vermək istəyirəm. Musa Quliyev. Buyurun.

**Musa Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli Qanununun icrası ilə əlaqədar olaraq Azərbaycan Respublikasının Əmək Məcəlləsində, “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununda və “Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi təklif olunur. Dəyişikliklər uyğunlaşdırma və texniki xarakter daşıyır, korrupsiyaya qarşı mübarizə sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsinə xidmət edəcəkdir.

Qanun layihəsi Milli Məclisin Əmək və sosial siyasət komitəsində ətraflı müzakirə olunmuş və Milli Məclisin plenar iclasına tövsiyə edilmişdir. Layihənin səsə qoyulmasını və dəstəklənməsini sizdən xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Musa müəllim, çox sağ olun, ətraflı məlumat verdiniz.

Hörmətli həmkarlar, bu qanun layihəsinə daha iki komitədə baxılmışdır. Bizim növbəti komitəmiz Hüquq siyasəti və dövlət quruculuğu komitəsidir. Komitənin rəyini bu gün hörmətli Əminə Ağazadə bildirəcək. Buyurun.

**Əminə Ağazadə,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli Musa müəllim qanun layihəsi barədə ətraflı məlumat verdi. Qeyd etmək istərdim ki, qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır. 2025-ci il martın 7-də biz “Korrupsiyaya qarşı mübarizə haqqında” Qanuna paket dəyişiklikləri həyata keçirmişdik. Məlum olduğu kimi, həmin qanunla dövlət və bələdiyyə orqanlarında korrupsiyanın qarşısının alınması, maraqların toqquşmasının idarə olunması və korrupsiya ilə bağlı məlumat verən şəxslərin müdafiəsi sahəsində yeni institusional mexanizmlər yaradılmışdır. Belə ki, korrupsiya ilə əlaqəli hüquqpozmalar barədə məlumat vermiş işçilərin müdafiəsi gücləndirilir və bununla yanaşı, korrupsiya ilə bağlı məlumat vermiş şəxsə qarşı qisas məqsədi ilə intizam tədbirlərinin tətbiq edilməsi iddia olunduqda həmin tədbirin məlumat vermə faktı ilə əlaqəli olmadığını sübut etmək vəzifəsi də işəgötürənin üzərinə qoyulur. Eyni zamanda, dövlət və bələdiyyə qulluqçularının etik davranış qaydalarına dair qanunlarda da korrupsiya ilə bağlı məlumatların verilməsi mexanizmləri də təkmilləşdirilir.

Həmçinin qeyd etmək istərdim ki, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın 2025-ci il 16 fevral tarixli iclasında da qanunvericiliyə korrupsiyaya qarşı mübarizə sahəsində təkmilləşdirilmə ilə bağlı bir sıra təkliflər irəli sürülmüş və müzakirələr olmuşdur. Təqdim olunan dəyişikliklər də korrupsiya ilə bağlı məlumat verən şəxslərin müdafiəsinin gücləndirilməsi, məlumatların araşdırılması mexanizmlərinin təkmilləşdirilməsi və aidiyyəti qanunvericilik aktlarının "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanuna uyğunlaşdırılmasına xidmət edəcəkdir.

Həmkarlarımdan qanun layihəsini dəstəkləməyi xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, bu məsələyə Regional məsələlər komitəsində də baxılmışdır. Komitənin sədri hörmətli Siyavuş Novruzova söz verirəm. Siyavuş müəllim,  buyurun, rəy bildirin.

**Siyavuş Novruzov,** *Milli Məclisin Regional məsələlər komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli xanım sədr.  Musa müəllim ətraflı şəkildə məlumat verdi. Sizin qeyd etdiyiniz kimi, bu, texniki xarakter daşıyır. Regional məsələlər komitəsində də "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 3 maddəsinə texniki dəyişikliklər olunur. Komitədə baxılıb və Milli Məclisin plenar iclasına təqdim olunubdur. Deputat həmkarlarımdan səs verməyi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Siyavuş müəllim.

Hörmətli həmkarlar, müzakirəyə keçirik. Fazil Mustafa. Buyurun.

**Fazil Mustafa.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, təbii ki, bu, uyğunlaşdırma xarakterli olduğuna görə xüsusi bir dəyişiklik nəzərdə tutulmayacaqdır. Amma gələcəkdə bu qanunun təkmilləşməsi baxımından faydalı və bizim praktikada baş verən müəyyən məsələlərlə bağlı narahatedici məsələlərin ortadan qaldırılması üçün çıxış etməyi məqsədəuyğun saydım.

Burada qisas alma məqsədi ilə korrupsiya ilə bağlı, hüquqpozmalarla bağlı məlumat verənlərə aid dəlillərin işəgötürən tərəfindən təkzib edilməsi nəzərdə tutulur. Bizə müraciət edən işdən çıxarılan, ixtisara salınan, yaxud da məqsədli şəkildə töhmət verilib işdən uzaqlaşdırılan insanların hansı isə hüquqlarını müdafiə edərkən bunun qarşılığını almaq praktikada mümkün olmur. Bir çox hallarda heç bir əsas gətirilmədən bu insanlar müəyyən qurumlarda baş verən neqativ hallarla bağlı verdikləri məlumatlara görə subyektiv mülahizələrlə cəzalandırılırlar. Ona görə də biz burada daha çox işəgötürənin məsuliyyəti məsələsi üzərində durmalıyıq. Təkzib verdi, ya vermədi, nə olsun? Yaxud ondan sonra o, əgər kimə isə haqsız töhmət veribsə, inzibati tənbeh tədbiri görübsə, onun məsuliyyət məsələsi xüsusi ilə önəm daşıyır. Onun bir nümunəsini mən söyləmək istəyirəm.

Bu günlərdə Azərbaycan futbolunda böyük bir qalmaqal baş verdi. İş adamı gedib Turan (Tovuz) komandasını götürür, milyonlarca vəsait xərcləyir, onu Avropa kubokuna daşıyır və 3-cü yeri tutur. Məlum olur ki, bu komanda 10 il Avropada iştirak edə bilməz. Çünki əvvəllər onun hansı isə cəzası olub. Bu cəza ilə bağlı da, mətbuatda verildiyi kimi, kluba əvvəlcədən heç bir məlumat verilməyib. Bunun özü bir korrupsiyadır.

Bizdə “Korrupsiyaya qarşı mübarizə haqqında” Qanunun 2.1.8-ci maddəsində göstərilir ki, qanunla müəyyən edilmiş hallarda dövlət

orqanlarının səlahiyyətini yerinə yetirən qeyri-dövlət orqanlarında təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını həyata keçirən şəxslər də korrupsiya pozuntusunun subyekti ola bilərlər, hüquqpozmanın subyekti sayılırlar. Mən belə bir vəziyyətdə bir korrupsiya əməlinin gələcəkdə nə nəticə doğuracağını söyləyim.

Hansı iş adamı bölgədə artıq milyonlar xərcləyərək bir komandanı dirçəldib orada idman həyatını canlandırar? Bundan sonra kim bu vəsaiti xərcləyər? Yəni ona görə də biz bu məsələlərə kiçik bir epizod kimi baxmamalıyıq.

Dünən Azərbaycanın minifutbol üzrə milli komandası Avropa çempionu oldu. İkinci dəfə də Avropa çempionu və dünya çempionu olur. Bəs deyirdilər, Azərbaycan futbol ölkəsi deyil, ona görə uğur qazana bilmirik. Demək, iş başında qabiliyyətli adamlar olanda komanda Avropada, dünyada birinci yeri tutur.

Mən bu korrupsiyanın, uzun illərdir, xərclənən vəsaitlərin nəticəsini kiçik faktlarla söyləmək istəyirəm. Özbəkistanın 60 futbolçusu legioner futbolçudur, xaricdə oynayır. Gürcüstanın 120 futbolçusu, Ermənistanın 40 futbolçusu – hamısı ölkəyə valyuta gətirir. Azərbaycanın cəmi 9 futbolçusu orta və aşağı səviyyəli klublarda, futbol ölkələrində oynayır. Təsəvvür eləyin ki, bu, həm də ölkəyə pul gətirmək deməkdir, ölkənin nüfuzu deməkdir. O baxımdan da mən hesab edirəm ki, biz korrupsiyaya təkcə bir sahədə – dövlət qurumlarında hansı isə epizodik bir məsələ kimi baxmamalıyıq. Adi bir nümunə, bir xəbər verməmə, bir məlumatlandırmama bir futbol klubunun təkcə taleyini həll eləmir, bütövlükdə, idmanın taleyini həll eləyir. Ona görə burada məsuliyyət məsələsi üzərinə ağırlıq yönəldilməlidir. Gələcəkdə bu istiqamətdə

dəyişiklik olacaqsa, biz elə etməliyik ki, heç olmasa, insanlar hansı isə sahəyə diqqət yetirəndə, oranı qaldırmaq istəyəndə, ondan ölkənin nüfuzu üçün istifadə etmək istəyəndə peşiman olmasınlar, bugünkü kimi pərişan duruma düşməsinlər.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Fazil müəllim. Sizin dediyiniz həmin komanda ilə müqavilə bağlananda onların heç bir hüquqşünası olmayıb? Bizim qanun layihəsinə aid deyil, ancaq Siz heç vaxt elə-belə çıxış etmirsiniz. Sizin çıxışınızın arxasında həmişə faktlar durur. Sadəcə, mənə maraqlı gəldi, mən düşünürəm, elə həmkarlarıma da. Bəs hüquqşünasları yox idi? O müqavilə necə tərtib edilirdi? Cavab istəmirəm, sadəcə, istədim, bu da burada deyilsin.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən məsələni səsə qoyuram. Gəlin, münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.50 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 3 məsələsi birinci oxunuşda olan qanun layihələridir. Biz indi gündəliyin 3-cü məsələsinə keçirik. Bu, "Dövlət qulluğu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində

baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Əli müəllim, mən yenə də sözü Sizə verirəm. Buyurun.

**Əli Hüseynli.** Çox sağ olun. Hörmətli sədr, hörmətli deputat həmkarlar, hamımız xatırlayırıq ki, biz bundan əvvəlki payız sessiyasında Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına əlavələri və dəyişiklikləri bu parlamentdə geniş müzakirə edib təsdiq etdik. Yeni Konstitusiya ilə Naxçıvanın ali vəzifəli şəxsi cənab Prezidentin səlahiyyətli nümayəndəsidir. Həyata keçirilən bu idarəetmə islahatları öz töhfəsini verməkdədir. Naxçıvanda sosial-iqtisadi vəziyyət, islahatlar, görülən işlər keyfiyyətcə yeni mərhələyə keçmişdir və biz bunun şahidiyik.

Əlbəttə ki, gələcəkdə Azərbaycanın qərb rayonları ilə Naxçıvanın birləşməsi, Zəngəzur dəhlizinin açılışı, sözsüz ki, Naxçıvanın inkişafını bundan sonra daha da sürətləndirəcək. İndiki mərhələdə isə həyata keçirilən idarəçilik islahatları da çox əhəmiyyətlidir.

Təqdim olunmuş qanun layihəsi bu idarəçilik modelinin daha da təkmilləşdirilməsinə xidmət edir. Belə ki, Naxçıvan Muxtar Respublikasının statusuna uyğun olaraq, cənab Prezidentin səlahiyyətli nümayəndəsi artıq birinci kateqoriya dövlət orqanının statusuna malik olacaq. Birinci kateqoriya isə siyasi vəzifə deməkdir. Hesab edirik ki, komitə olaraq bu yanaşma tamamilə düzgündür. Buna görə də səlahiyyətli nümayəndənin həm özünə, həm də müavinlərinə artıq "Dövlət qulluğu haqqında" Qanun şamil edilməyəcək.

Yeganə bir qeyd nəzərdə tutulub. Bu qeyd də onunla bağlıdır ki, "Dövlət qulluğu haqqında" Qanunun 33-4-cü maddəsinə uyğun olaraq, həmin şəxslərin xidmət illəri nəzərə alınmaqla əməyin ödənişi pilləsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən ediləcəkdir. Yəni yeganə bir qeyd

mövcuddur. Bu qeyd digər siyasi vəzifəli şəxslərə də aiddir. Məhz bu dəyişikliklərə görə, eyni zamanda, səlahiyyətli nümayəndənin köməkçisi vəzifəsi 3-cü təsnifat vəzifələri siyahısına aid ediləcək.

Yekun olaraq onu demək istəyirəm ki, təklif olunan bu dəyişikliklər “Dövlət qulluğu haqqında” Qanuna, Naxçıvan Muxtar Respublikasının statusuna, Naxçıvanda cənab Prezidentin səlahiyyətli nümayəndəsinin fəaliyyətinə xüsusi bir dəstəkdir. Əminəm ki, həmkarlarım da məhz bu mənada bizim Konstitusiyada Naxçıvanla bağlı etdiyimiz dəyişikliklərə o formatda dəstək verəcəklər. Bu düzəlişlər Naxçıvanda idarəetmənin təkmilləşdirilməsinə də öz töhfəsini vermiş olacaqdır.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

Hörmətli həmkarlar, mən görürəm, yazılanlar var. Müzakirəyə keçirik.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli, mənim də fikrim odur ki, çıxışlar 5 dəqiqəyə qədər olsun. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli millət vəkilləri, hörmətli Əli müəllim “konstitusion islahatlar” ifadəsini işlətdi. Tamamilə həqiqətdir. Ona görə müzakirəyə təqdim olunan yeni qanun layihəsi Vətən müharibəsində qələbəmizdən sonra dövlət idarəçiliyi sisteminə daxil olan yeni institutun – xüsusi nümayəndəlik təsisatının gücləndirilməsinə, ölkəmizin idarəçilik sisteminin yenilənməsinə xidmət edən mühüm hüquqi aktdır.

Naxçıvan Muxtar Respublikasının Azərbaycanın dövlətçilik tarixində müstəsna və əvəzedilməz yeri var. Ulu Öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə məhz Naxçıvanda gəldi. Ölkənin dağılmaq təhlükəsi qarşısında olduğu o ağır illərdə qədim diyar həm hərbi istehkam, həm də Azərbaycanın siyasi xilas yolu oldu.

Naxçıvanın muxtariyyəti arxasında tarixi, siyasi, hüquqi və təhlükəsizlik amilləri dayanır. O dövrdə respublika statusu əsrin istər əvvəllərində, istərsə də işğal dövründə regionun təhlükəsizliyində müstəsna rol oynadı. Qardaş Türkiyə ilə Qars müqaviləsini tarixi sənəddən 1990-cı illərin ağır dövrlərinə qaytardı. Türk Dövlətləri Birliyinin təməlləri də məhz o məkanda qoyuldu.

Muxtariyyət unitar quruluşa uyğundur, dövlətin suverenliyi, vahid idarəçilik və milli təhlükəsizlik prinsipləri üzərində qurulub. Heç zaman paralel dövlətçilik demək deyil. Bir çox sosial media paylaşımlarında qanun layihəsini muxtariyyətin tədricən zəiflədilməsi kimi təqdim edirlər. Halbuki Naxçıvanda mövcud olan nazirlik və idarəetmə strukturları alternativ hökumət statusu daşımır. Onlar muxtariyyət çərçivəsində fəaliyyət göstərsələr də, mərkəzi hakimiyyətin ayrılmaz hissəsidirlər.

Layihə də muxtariyyətin konstitusion çərçivələrini dəyişdirmir, yalnız idarəçiliyi gücləndirir. Muxtariyyəti ləğv etmək istəyən heç bir qanun nümayəndəliyin statusunu artırmaz, əksinə, azaldar.

Vətən müharibəsində qələbə həm də yeni idarəçilik elementləri gətirdi. Bir az öncə qeyd etdik, Qarabağ və Şərqi Zəngəzurdan kənarda ilk dəfə Prezidentin xüsusi nümayəndəlik  institutu məhz orada yaradıldı və dövlət idarəçiliyində yeni mərhələ kimi qəbul olundu. İndi sülh gündəliyi ilə regionda tamamilə fərqli geosiyasi reallıqlar formalaşır. Zəngəzur və orta

dəhliz layihələri, türk dünyasının inteqrasiyası, yeni logistika marşrutları və regional təhlükəsizlik məsələləri fonunda Naxçıvanın əhəmiyyəti daha da artır. Azərbaycanla coğrafi birlik sülh müqaviləsinin məntiqi nəticəsinə çevriləcəkdir.

Bir vaxtlar blokada şəraitində yaşayan torpaq gələcək nəqliyyat və iqtisadi layihələrin əsas qovşaqlarından biri olacaq. Belə bir mərhələdə dövlət idarəçiliyinin çevikliyi, operativ qərarvermə və vahid koordinasiya xüsusi önəm daşıyır. Layihə dövlət siyasətinin daha səmərəli icrasına, mərkəzlə bölgə arasında koordinasiyanın güclənməsinə xidmət edir. Naxçıvanda strateji infrastruktur layihələri həyata keçirilirsə, – məsələn, yol, enerji, logistika, – proqramın müxtəlif mərhələlərini ayrı-ayrı nazirliklərlə, idarələrlə koordinasiya etmək gərək olur. Əgər yerli nümayəndəliyin statusu koordinasiyanı təmin etmək üçün kifayət etmirsə, qərar avtomatik uzanır və planların da icrası gecikir.

Prezidentin müəyyən elədiyi vəzifələri yerlərdə həyata keçirən qurumlar və şəxslər, çevik qərar qəbul edə bilən, Bakı ilə birbaşa əlaqəli fəaliyyət aparan strukturlar olmalıdır. Qanunda təklif olunan dəyişikliyin də mahiyyəti odur ki, Prezidentin səlahiyyətli nümayəndəsi artıq birinci kateqoriyalı dövlət orqanı statusunu alır, adi inzibati vəzifə şəbəkəsindən çıxarılır, birbaşa Prezidentə tabe olan xüsusi vəzifəli şəxslər sırasına keçirilir.

Layihə idarəçilik iyerarxiyasında xüsusi nümayəndəliyin statusunu, dediyimiz kimi, gücləndirir. Amma bu sistem Qarabağ və azad torpaqlarda tətbiq olunub. Mötəbər sorğuların nəticələri də göstərir ki, bu instituta ictimai etimad da yüksəkdir. Çünki onlar artıq idarəçiliyin ağırlıqlarını çiyinlərində daşıyırlar. Ona görə də inanırıq ki, bu statusla məsuliyyətin

uyğunlaşdırılması Naxçıvanı daha da gücləndirəcək, ölkəmizin bütün ərazisində vahid səmərəli dövlət idarəçiliyinin bərqərar olmasına töhfə verəcəkdir.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar və media nümayəndələri. Təqdim olunan qanun layihəsini bəyənirəm və doğru hesab edirəm, lehinə səs verəcəyəm. Bununla bərabər, diqqətinizə dövlət qulluğuna qəbul sistemi ilə bağlı mühüm bir məsələni çatdırmaq istəyirəm. Hamımız bilirik ki, dövlət qulluğu imtahanları gənclərin bilik və bacarıqlarını obyektiv şəkildə qiymətləndirmək məqsədi daşıyır. Minlərcə gənc aylarla, bəzən illərlə hazırlaşır, imtahan verir, yüksək nəticə göstərir və dövlət qulluğu sertifikatı əldə edir. Lakin bundan sonra çox vaxt başqa bir mərhələ başlayır: uzun gözləmə, ardıcıl müsahibələr və nəticəsiz cəhdlər.

Bu gün yüzlərcə gənc dövlət qulluğu imtahanından uğurla keçib, sertifikat alıb, amma sertifikatının qüvvədə olduğu müddət başa çatana qədər dövlət qulluğunda iş tapa bilmir. Onlar bir vakansiyadan digərinə müraciət edir, müsahibələrdə iştirak edir, lakin dəfələrlə uğursuz hesab edilirlər. Cəmiyyətdə isə haqlı bir sual yaranır: Əgər şəxs dövlətin keçirdiyi imtahandan uğurla keçibsə, onun peşəkar hazırlığı təsdiqlənibsə, bəs niyə illərlə iş tapa bilmir? Məhz burada müsahibə mərhələsi ilə bağlı narahatlıqlar ortaya çıxır. Çünki imtahan konkret nəticəyə əsaslanır, bal var, meyar var, qiymətləndirmə aydındır. Müsahibədə isə subyektiv yanaşma ehtimalı daha yüksəkdir. Namizəd çox zaman hansı səbəbdən uğursuz hesab edildiyini tam şəkildə öyrənə bilmir. Bu isə gənclərdə

narazılıq yaradır, dövlət qulluğuna qəbul sisteminə olan etimadı zəiflədir. Əgər biz bu subyektivliklə bağlı sualları aradan qaldırmasaq, dövlət qulluğu imtahanlarının nüfuzu getdikcə zədələnə bilər. Gənclər düşünə bilər ki, imtahandan keçmək hələ heç nə demək deyil və əsas qərar başqa mərhələdə verilir. Bu isə dövlətin qoyduğu obyektiv qiymətləndirmə mexanizminin mahiyyətinə zidd gəlir. Ona görə də dövlət qulluğu imtahanından uğurla keçərək sertifikat əldə etmiş şəxslərin məşğulluq imkanları ilə bağlı yeni yanaşmaya ehtiyac yaranıb.

Təklif edirəm ki, sertifikat almış şəxsin sertifikat əldə etdiyi tarixdən sonrakı 6 ay ərzində dövlət qulluğunda işlə təmin olunması istiqamətində hüquqi mexanizmlər yaradılsın. Ən azı dövlət həmin şəxslərin ehtiyat kadr bazası vasitəsi ilə vakant vəzifələrə prioritet qaydada yerləşdirilməsini təmin etsin. Çünki dövlət qulluğu imtahanını uğurla vermiş, bilik və bacarığını sübut etmiş bir gəncin illərlə işsiz qalması normal hesab edilmir. Əgər bir namizəd dəfələrlə müsahibədən keçə bilmirsə və bu hal yüzlərcə insan üçün təkrarlanırsa, artıq məsələ ayrı-ayrı şəxslərin problemi deyil, sistemin təhlil edilməsini tələb edən ciddi bir siqnaldır. Bizim məqsədimiz yalnız imtahan keçirmək deyil, həm də bilikli, hazırlıqlı və motivasiyalı gənclərin dövlət idarəçiliyinə cəlb edilməsini də təmin etmək olmalıdır.

Dövlət qulluğuna qəbul sistemində şəffaflığı, ədaləti və etimadı gücləndirmək üçün müsahibə mərhələsində mümkün subyektivlikləri minimuma endirmək, sertifikatlı namizədlərin dövlət qulluğunda real karyera imkanlarını genişləndirmək vacibdir və bunun üçün qanunvericilik bazası daha da təkmilləşdirilməlidir.

Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun.

Vüqar Bayramov.

**Vüqar Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, mən də qanun layihəsini dəstəkləyirəm və qanun layihəsinə səs verəcəyəm.

Müzakirə etdiyimiz qanun layihəsi Naxçıvan Muxtar Respublikasında həm institusional, həm də idarəetmədə islahatların dərinləşməsi baxımından vacib dəyişiklikdir. Praktik olaraq bu, Naxçıvan Muxtar Respublikasının xüsusi ilə də idarəetmədə struktur olaraq inkişafına dəstək olacaq.

2026-cı il yanvarın 1-dən etibarən Naxçıvan Muxtar Respublikasında, Qarabağda və Şərqi Zəngəzurda olduğu kimi, vergi güzəştləri rejimi tətbiq olunub. Bu o deməkdir ki, Naxçıvan Muxtar Respublikasında həm institusional, həm idarəetmə, həm də bütövlükdə, sahibkarlığın dəstəklənməsi istiqamətində ciddi addımlar atılır. Bu, Zəngəzur dəhlizinin istifadəyə verilməsi kontekstindən, təbii ki, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının daha yaxından dəstəklənməsinə və sahibkarlığın inkişafına təkan verəcək.

Birinci oxunuşun tələblərinə uyğun olaraq, konseptual olaraq iki məqama diqqət çəkmək istərdim. Bunlardan birincisi məhz dövlət qulluqçularının çalışdıqları iqtisadi rayonlar üzrə bölgüsüdür. Bu gün bizim müzakirə etdiyimiz Naxçıvan Muxtar Respublikasında son statistikaya əsasən 2272 dövlət qulluqçusu çalışır. Bütövlükdə, ölkədə dövlət qulluqçularının sayı 27 mindən çoxdur. Onun 13 min 756 nəfəri Bakı şəhərində çalışır və Bakı şəhərinin payına düşür. Təbii ki, dövlət qulluqçularının əhəmiyyətli hissəsinin Bakı şəhərinin payına düşməsi idarəetmə və institusional baxımdan başadüşüləndir.

Bununla belə, bir sıra iqtisadi rayonlarımızda dövlət qulluqçularının sayı hətta 1000 nəfərə belə çatmır. Məsələn, Abşeron-Xızı iqtisadi rayonunda cəmi 662, Dağlıq Şirvan iqtisadi rayonunda 696, Mil-Muğan iqtisadi rayonunda 720, Şirvan-Salyan iqtisadi rayonunda 764, Quba-Xaçmaz iqtisadi rayonunda isə 795 dövlət qulluqçusu var. Yəni bu rəqəmlər ondan xəbər verir ki, regional olaraq və xüsusən iqtisadi rayonlar üzrə dövlət qulluqçularının yerləşdirilməsi və vakansiyalar elan edilən zaman həm də diferensial olaraq regional prinsipin nəzərə alınması vacibdir.

Bizim bu gün müzakirə etdiyimiz qanun layihəsi Naxçıvan Muxtar Respublikasında dövlət qulluqçularının sayının artmasına xidmət edəcək. Bu da, təbii ki, diferensial olaraq dövlət qulluqçularının iqtisadi rayonlar üzrə paylaşması baxımından vacib dəyişiklikdir.

İkinci konseptual məqam iqtisadi rayonlar üzrə dövlət qulluqçularının orta aylıq əməkhaqlarındakı fərqlərlə bağlıdır. 2025-ci ilə olan rəsmi statistikaya əsasən ölkə üzrə dövlət qulluqçularının orta aylıq əməkhaqqı 1971 manatdır. Bu göstərici Bakı şəhərində 2539 manatdır. Təbii ki, bunun da institusional və idarəetmə baxımından əsasları var.

Qanun layihəsinə uyğun olaraq, Naxçıvan Muxtar Respublikasında son statistikaya əsasən dövlət qulluqçularının orta maaşı 1502 manat, Mil-Muğan iqtisadi rayonunda 1371 manat, Mərkəzi Aran iqtisadi rayonunda 1366, Gəncə-Daşkəsən iqtisadi rayonunda 1349, Şirvan-Salyan iqtisadi rayonunda isə 1316 manatdır. Bu rəqəmlər ondan xəbər verir ki, bəzi iqtisadi rayonlarımızda dövlət qulluqçularının orta aylıq əməkhaqqı ilə ölkə üzrə orta aylıq əməkhaqqı arasında fərq var. Bəzən bu fərq təxminən 40 faizə yaxındır. Bu isə ondan xəbər verir ki, xüsusən də iqtisadi rayonlarımızda ixtisaslı kadrların işlə təminatının gücləndirilməsi və təşviq

edilməsi üçün iqtisadi rayonlar üzrə orta aylıq əməkhaqqı arasındakı fərqin azaldılması prioritet olaraq qalmaqdadır. Çünki birmənalı şəkildə, xüsusən dövlət strukturunda ixtisaslı kadrların işlə təmin olunması yalnız vakansiyaların sayından deyil, eyni zamanda, vakansiyalar üzrə təklif olunan əməkhaqqı məbləğindən birbaşa asılıdır.

Dövlət qulluqçularının sosial təminatının yaxşılaşdırılması ilə bağlı məhz bu ilin fevral ayında cənab Prezident tərəfindən sənəd imzalandı. Bu, təbii ki, dövlət qulluqçularının əməkhaqlarının artmasına və xüsusən də bölgələrdə çalışan dövlət qulluqçusu olan vətəndaşlarımızın daha yüksək əməkhaqqı almasına imkan verəcək.

Bu kontekstdən dəyişiklik konseptual məqam üzrə dövlət qulluqçularının diferensial yerləşdirilməsinə təsir göstərəcək və iqtisadi rayonlarımızda çalışan dövlət qulluqçularının sayının artmasına gətirib çıxaracaq. Son imzalanan sənədlər də diferensial olaraq əməkhaqqı arasındakı fərqin minumumlaşdırılmasına xidmət edəcək.

Bu kontekstdən qanun layihəsini dəstəkləyirəm və səs verəcəyəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Siyavuş Novruzov.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, Əli müəllim qanun layihəsini ətraflı şəkildə təqdim etdi. Burada əsas məqsəd ondan ibarətdir ki, Prezidentin səlahiyyətli nümayəndəsi artıq birinci kateqoriya dövlət qulluğunda təmsil olunacaq.

Cənab Prezident tərəfindən təyin edilmiş səlahiyyətli nümayəndələr istər işğaldan azad olunmuş ərazilərimizdə, istərsə də Naxçıvan Muxtar Respublikasında çox uğurla fəaliyyət göstərirlər. Bu gün tikinti-quruculuq,

abadlıq işlərində, yeni iş yerlərinin yaradılmasında, əhalinin güzəranının yaxşılaşdırılmasında, onların işlə təmin olunmasında xüsusi operativ addımlar atılır. Bu, bir daha idarəçiliyin operativliyini təmin edir. Biz bunların hər birinin şahidiyik.

Cənab Prezidentin sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" qəbul olunubdur. Bu proqrama əsasən Naxçıvan Muxtar Respublikasında içməli və suvarma suyu ilə əlaqədar, yaşıl enerjinin tətbiqi, turizm və digər məsələlərlə bağlı addımlar atılır, yeni iş yerləri açılır, fəaliyyət proqramı davam edir.

Xüsusi ilə qeyd etmək lazımdır ki, Zəngəzur dəhlizi ilə bağlı artıq Naxçıvan Muxtar Respublikasında işlər başlanılıbdır. Həm Sədərək tərəfindən dəmir yolu, həm də Ordubad tərəfindən – dəhlizə 40 kilometr yaxın olan ərazidən artıq yolların tikintisi, planlaşdırılması həyata keçirilir. Bu proseslər qısa müddətdə başa çatacaqdır. Bunun üçün də məhz səlahiyyətli nümayəndənin fəaliyyətinin operativliyinin təmin olunması və gələcəkdə bütün proseslərdə operativ iştirak etməsi, Naxçıvanda azad iqtisadi zonanın yaradılması ilə əlaqədar görülən işlərlə bağlı çox böyük layihələr var. Bu gün bu proseslər Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir.

Hörmətli Zahid müəllim də burada qeyd elədi, bəzi hallarda Naxçıvan Muxtar Respublikasının muxtariyyəti ilə əlaqədar bir çoxları Azərbaycanın unitar dövlət olmağını ortaya atırlar. Amma başa düşməlidirlər ki, Naxçıvan Muxtar Respublikasının muxtariyyət məsələsi etnik muxtariyyət deyil, bu, siyasi muxtariyyətdir. Yəni vaxtı ilə Naxçıvanın Azərbaycandan əlaqəsi kəsildiyinə görə və Naxçıvan Muxtar Respublikasında idarəçiliyin

operativliyinin təmin olunmasından ötrü bu addımlar atılıbdır. Yəni orada yaşayan əhali də Azərbaycan vətəndaşlarıdır, azərbaycanlılardır. O baxımdan da unitar dövlətin hansısa bir strukturuna xələl gətirəcəyi qəti şəkildə müzakirə mövzusu deyil. Bu, tamam başqa bir formadır, həm hüquqda, həm də dövlət hüququnda bu, belədir.

Digər tərəfdən də, Naxçıvan Muxtar Respublikasında blokadanın aradan qalxması, digər yolların açılması ilə əlaqədar orada sosial-iqtisadi inkişaf, əlaqələr və qeyd olunduğu kimi, vergi güzəştlərinin tam şəkildə tətbiqi davam edəcəkdir. Hesab edirəm ki, bu, muxtar respublikanın inkişafına doğru atılmış bir addımdır, dəstəkdir.

Deputat həmkarlarımdan qanun layihəsini qəbul etməyi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim.

Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə.** Təşəkkür edirəm, xanım sədr. Mən edilən dəyişikliyi dəstəkləyirəm. Texniki məsələ olsa da, bunun siyasi əhəmiyyəti böyükdür. Bu, cənab Prezidentin Naxçıvanda səlahiyyətli nümayəndəsi statusunun, institutunun hüquqi müstəvidə yerinin daha da möhkəmləndirilməsi deməkdir.

Vətən müharibəsindən sonra, Azərbaycanın ərazi bütövlüyünün birgünlük əməliyyat nəticəsində tam təminindən sonra səlahiyyətli nümayəndənin təyin edilməsi olduqca vacib idi. Bu, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan bölgəsi arasında əlaqələrin daha da güclənməsi, Naxçıvanın qarşısında duran problemlərin mərkəzi hökumət tərəfindən operativ və daha dərindən həll edilməsi üçün geniş şərait yaradırdı. Ötən müddət səlahiyyətli nümayəndə vəzifəsinin, təsisatının düzgün bir addım olduğunu göstərdi. Hesab edirəm ki, bu cür dəyişikliklər Azərbaycan

dövlətçiliyinin möhkəmlənməsinə, hüquqi məsələlərin öz yerini tam dəqiq tutmasına kömək edir.

Hörmətli xanım sədr, bir məsələyə də münasibət bildirmək istəyirəm. Dünən Azərbaycan ictimaiyyəti şad bir xəbər aldı. Bu, minifutbol üzrə Azərbaycan komandasının Avropa çempionu olması xəbəri idi. Cənab Prezidentimiz də bu münasibətlə həm idmançıları, həm də Azərbaycan ictimaiyyətini  təbrik etdi. Bu, Azərbaycanda idmana olan diqqətin növbəti bir göstəricisi idi.

Artıq ikinci dəfədir ki, Azərbaycan minifutbol komandası Avropa çempionu olur. Bir dəfə isə dünya çempionu olubdur. Gündən-günə idmanın müxtəlif sahələrində, o cümlədən futbolda inkişafımız göz qabağındadır. Artıq dörd komandamız Avropa yarışlarında iştirak etmək hüququ qazanıb. İnanıram ki, “Zirə” ilə bağlı olan texniki məsələlər də öz həllini tapacaqdır.

Ümid etmək istəyirəm ki, Azərbaycan futbol yığması nə vaxtsa dünya çempionatında olacaq. Düzdür, bu günlərdə başlayacaq Dünya üzrə futbol çempionatında Azərbaycan komandası yoxdur. Amma bizim üçün doğma olan Türkiyə komandası var. Biz Türkiyə komandasına uğurlar arzulayırıq, ondan qələbələr gözləyirik və ürəyimiz, həmişə olduğu kimi, yenə də Türkiyə ilədir.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Bəli, Azərbaycanda idman inkişaf edir və bu istiqamətdə də çox ciddi addımlar atılır. Sizin dediyiniz məsələ ilə bağlı isə bu gün elə biz də səhərdən Milli Məclisin öz media şəbəkələrində paylaşım eləmişik.

Vüqar Rəhimzadə. Buyurun.

**Vüqar Rəhimzadə**. Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlarım, hörmətli Əli müəllim bu dəyişikliklə bağlı ətraflı məlumat verdi. Doğrudan da, son illər Azərbaycanda, Qarabağda, Şərqi Zəngəzurda və Naxçıvanda yeni idarəçilik sisteminin yaradılması, formalaşdırılması qarşıya qoyulmuş hədəflərə yüksək səviyyədə nail olmaq üçün kifayət qədər çevik, önəmli qərarlardır. Bu baxımdan, hesab edirəm ki, bu dəyişikliyin də kifayət qədər vacib əhəmiyyəti var. Qarşıya qoyulmuş tapşırıqların yüksək səviyyədə yerinə yetirilməsi və səlahiyyətli nümayəndəliyin hüquqi və siyasi statusunun müəyyən olunması kifayət qədər vacib dəyişikliklərdən biridir. Mən də bu dəyişikliyə birmənalı şəkildə səs verəcəyəm. Bu dəyişiklik, doğrudan da, Naxçıvan Muxtar Respublikasında idarəçilik sisteminin müasir tələblərə cavab verəcək şəkildə formalaşmasında, inkişaf etməsində və regionun inkişafında kifayət qədər önəmli rola malik olacaq bir addımdır.

Son illər, ümumiyyətlə, Azərbaycanın regionları ilə bağlı çox uğurlu işlər reallaşmaqdadır. Möhtərəm cənab Prezidentimizin kifayət qədər mühüm sərəncamları və qərarları var. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı mühüm addımlar atılmaqdadır, qərarlar verilməkdədir. Əlbəttə ki, bu, regionlarla şəhər arasında, şəhərlə kənd rayonları arasında fərqin azalmasında müstəsna rola malikdir. Bu baxımdan, regionlarda sosial-iqtisadi inkişafla bağlı reallaşan işləri yeni istehsal sahələrinin yaradılmasında, eyni zamanda, regionların inkişafında mühüm töhfə kimi qiymətləndirmək olar.

Naxçıvan Muxtar Respublikası ilə bağlı. Uzun illərdir, blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasında son bir ildə su təsərrüfatının yenilənməsi ilə bağlı möhtərəm cənab Prezidentimiz

tərəfindən iki sərəncam imzalandı. Bu sərəncamlar aqrar sahənin inkişafında, içməli su təchizatının yaxşılaşmasında kifayət qədər önəmli hadisədir. Subartezian quyularının qazılması bəzi kəndlərdə, qəsəbələrdə su ehtiyatının daha da zənginləşməsinə xidmət göstərən addımlardır.

Burada həmkarlarımız qeyd elədi. Doğrudan da, bu il vergi güzəştlərinin tətbiq olunması, Qarabağda, Şərqi Zəngəzurda və eyni zamanda, Naxçıvan Muxtar Respublikasında bu güzəştlərin tətbiq olunması həm sahibkarlığın inkişafına mühüm töhfədir, həmçinin regionun inkişafında, yeni istehsal sahələrinin, yeni iş yerlərinin yaradılmasında çox əhəmiyyətlidir.

Mən də bu dəyişikliyi yüksək qiymətləndirirəm, dəstəkləyirəm və deputat həmkarlarımdan da bu dəyişikliyə dəstək vermələrini xahiş edirəm. Çox təşəkkür edirəm, minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun.

Sonuncu çıxış. Ülviyyə Həmzəyeva. Buyurun.

**Ülviyyə Həmzəyeva.** Hörmətli xanım sədr, hörmətli deputatlar, media nümayəndələri. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən institusional islahatlar çərçivəsində yaradılmış xüsusi və səlahiyyətli nümayəndəlik institutu dövlət idarəçiliyinin təkmilləşdirilməsi istiqamətində atılmış ən uğurlu addımlardan biri kimi özünü təsdiq etmişdir. Bu institutun fəaliyyət göstərdiyi bölgələrdə dövlət qurumları arasında koordinasiyaların güclənməsi, qarşıya qoyulan vəzifələrin daha operativ icrası, vətəndaş məmnunluğunun artması regional inkişaf layihələrinin daha səmərəli həyata keçirilməsinin bariz nümunəsidir.

Xüsusi və səlahiyyətli nümayəndəliklər mərkəzi hakimiyyətlə yerli idarəetmə arasında çevik əlaqələndirmə mexanizmi yaradaraq dövlət siyasətinin yerlərdə daha effektiv icrasına mühüm töhfə vermişdir. Bu gün həmin işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işlərində, həm də digər bölgələrdə müşahidə olunan müsbət dəyişikliklər göstərir ki, cənab Prezidentin təşəbbüsü ilə formalaşdırılan bu idarəetmə modeli özünü tam doğruldur. Əldə olunan nəticələr bir daha sübut edir ki, güclü siyasi iradəyə, dəqiq koordinasiya və məsuliyyətli idarəetməyə əsaslanan bu institut regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsində və dövlət–vətəndaş münasibətlərinin daha da möhkəmləndirilməsində mühüm rol oynayır. Məhz buna görə də xüsusi və səlahiyyətli nümayəndəlik institutu müasir Azərbaycan dövlətçiliyinin səmərəli idarəetmə təcrübələrindən biri kimi qiymətləndirilə bilər.

Qanun dəyişikliyinə səs verəcəyəm. Təşəkkür edirəm. Həmkarlarımı da səs verməyə çağırıram. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, daha çıxış edən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz növbəti məsələyə keçirik. Bizim 4-cü məsələmiz Cinayət-Prosessual Məcəllədə, Cəzaların İcrası Məcəlləsində və "İcra haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Bəhruz Məhərrəmova söz verirəm. Bəhruz müəllim, buyurun.

**Bəhruz Məhərrəmov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar, Cinayət-Prosessual, Cəzaların İcrası məcəllələrinə, o cümlədən "İcra haqqında" Qanuna təklif edilən dəyişikliklər çox mühüm bir istiqamətdə hüquq münasibətlərinin təkmilləşdirilməsini nəzərdə tutur.

Bilirsiniz ki, təcrübədə bir çox hallarda təqsirləndirilən şəxs olmayan, lakin əmlak üzərinə həbs qoyulması barədə cinayət prosesini həyata keçirən orqanın qərarı ilə qanuni mənafelərinə toxunulan şəxslər olur. Təbii ki, prosessual qanunvericilik şəxsiyyəti, cəmiyyəti və dövləti cinayətkar qəsdlərdən qorumağı hədəfləyir. Lakin təcrübə göstərir ki, cinayət təqibinin gedişində məhz qeyd etdiyimiz kateqoriyadan olan şəxslərə münasibətdə, bir qayda olaraq, problemlər meydana çıxır və prosessual qaydaların təkmilləşdirilməsi zərurəti hiss edilir.

Möhtərəm Prezidentin imzası ilə parlamentə daxil olmuş cari qanun layihəsi də məhz təqsirləndirilən şəxs olmayan, lakin əmlak üzərinə həbs qoyulması barədə qərarla qanuni mənafelərinə toxunulan şəxslərlə bağlı müşahidə olunan praktik çətinlikləri aradan qaldırmağa yönəlib. Daha dəqiq desək, bu şəxslər cinayət prosesində iştirak edən digər şəxslər kateqoriyasına daxil edilərək prosessual status qazanırlar. Beləliklə də,

həmin şəxslərin qanuni mənafelərinə toxunulan şəxs qismində cinayət prosesinə cəlb edilməsi, cinayət prosesində iştirak edən şəxslər kimi apellyasiya, kassasiya və əlavə kassasiya şikayəti vermək hüquqları və qaydaları tənzimlənir.

Bundan başqa, bildiyimiz kimi, hazırkı qanunvericiliyə əsasən cinayət mühakimə icraatı çərçivəsində əmlak üzərinə həbs qoyulması barədə cinayət prosesini həyata keçirən orqanın qərarı mülki məhkəmə icraatı çərçivəsində mübahisələndirilirdi ki, bu da tam yeni məhkəmə prosesinin başlanması demək idi. Lakin cari layihə nəzərdə tutur ki, cinayət mühakiməsi icraatı çərçivəsində əmlak üzərinə həbs qoyulması barədə cinayət prosesini həyata keçirən orqanın qərarı artıq məhkəmə nəzarəti qaydasında mübahisələndirilsin. Təbii ki, məhkəmə nəzarəti qaydasında materiallara baxılması və işin həll edilməsi həm zaman baxımından mülki mühakimə icraatından daha çevik və operativdir, həm də sonradan ortaya məhkəmə qərarının prudensial əhəmiyyətinin hansı həddə olması kimi mübahisə çıxmır.

Hörmətli deputatlar, gördüyünüz kimi, layihə kifayət qədər ciddi məqamları ehtiva edərək köklü və praktik çətinliklər yaradan məsələlər üçün səmərəli həll yolu təklif edir. Ona görə də Hüquq siyasəti və dövlət quruculuğu komitəsi olaraq sizdən qanun layihəsini dəstəkləməyi xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun.

Müzakirəyə keçirik. Vasif Qafarov. Buyurun.

**Vasif Qafarov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, təqdim olunan qanun layihəsi mühüm hüquqi boşluğu aradan qaldıran və cinayət-prosessual qanunvericiliyinin təkmilləşdirilməsi

baxımından mütərəqqi xarakter daşıyan qanunvericilik təşəbbüsü kimi qiymətləndirilməlidir.

Cinayət prosesini həyata keçirən orqanın əmlak üzərinə həbs qoyması barədə qərarından zərər çəkən, lakin prosesdə həmin rəsmi iştirakçı statusuna malik olmayan üçüncü şəxslərin hüquqlarının müdafiəsi uzun müddət hüquqi tənzimlənmədən kənarda qalan sahələrdən biri idi.

Layihənin ən mühüm üstünlüklərindən biri, hesab edirəm ki, belə şəxslərin cinayət prosesində ayrıca iştirakçı kateqoriyası kimi tanınması, onların hüquq və vəzifələrinin sistemli şəkildə müəyyənləşdirilməsi, habelə məhkəmə müdafiəsi vasitələrindən istifadə imkanlarının genişləndirilməsidir. Xüsusi ilə həmin şəxslərə apellyasiya, kassasiya və əlavə kassasiya qaydasında şikayət vermək hüququnun tanınması, məhkəmə baxışlarında iştirak etmək, sübutlar təqdim etmək və vəsatətlər vermə imkanlarının yaradılması hüquqi müdafiə mexanizmlərini əhəmiyyətli dərəcədə gücləndirir. Bu baxımdan, layihə həm prosessual ədalətin, həm də Konstitusiya ilə təmin olunan mülkiyyət hüququnun daha effektiv müdafiəsinə xidmət edən mühüm addım hesab edilməlidir. Bununla yanaşı, layihənin daha da təkmilləşdirilməsi məqsədi ilə bir sıra hüquqi və praktiki məsələlərin də nəzərə alınmasını məqsədəuyğun hesab edirəm.

Layihənin ən nəzərə çarpan çatışmazlıqlarından biri kompensasiya mexanizminin nəzərdə tutulmamasıdır. Layihə həmin şəxsin cinayət prosesinə cəlb edilməsini və onun hüquq və vəzifələrini müəyyən edir, lakin əmlakına haqsız və ya sonradan əsassız hesab edilən həbs qoyulması nəticəsində dəymiş zərərin ödənilməsi barədə hər hansı norma nəzərdə tutmur. Hesab edirəm ki, cinayət prosesi başa çatdıqdan sonra şəxsin əmlakından istifadə edə bilmədiyi müddət ərzində itirdiyi gəlir, iş imkanları

və digər maddi itkilər üçün kompensasiya tələb etmək hüququ müəyyən edilməlidir. Əks halda hüquq formal olaraq tanınsa da, pozulduğu halda onun effektiv bərpası təmin olunmamış qalır.

Layihədə həmçinin şəxsin vəfatı halında hüquqi varisliyin tənzimlənməməsi ciddi çatışmazlıq kimi çıxış edir. Əmlak üzərində həbs qoyulmuş şəxs proses zamanı vəfat etdikdə onun bu layihə ilə tanınan prosessual hüquqlarının varislərinə keçib-keçməyəcəyi müəyyən edilmir. Hesab edirəm ki, mülki qanunvericiliklə uyğunluğun təmin olunması məqsədi ilə bu məsələnin də ayrıca tənzimlənməsi zəruridir. Layihədə vicdanlı üçüncü şəxslərin müdafiəsi məsələsi də ayrıca tənzimlənməmişdir. Praktikada cinayət yolu ilə əldə edilmiş əmlakın sonradan həmin hallardan xəbərsiz olan şəxslərə ötürülməsi mümkündür. Belə hallarda vicdanlı əldəedicinin hüquqlarının hansı meyarlarla qiymətləndiriləcəyi və müdafiə olunacağı aydın şəkildə müəyyən edilmədiyindən gələcəkdə hüquqi qeyri-müəyyənlik yarana bilər.

Ümumilikdə, qanun layihəsini müsbət qiymətləndirirəm. Hesab edirəm ki, təqdim olunan qanun layihəsi cinayət prosesində iştirakçı statusuna malik olmayan, lakin əmlak hüquqları məhdudlaşdırılan şəxslərin hüquqi müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm qanunvericilik təşəbbüsüdür.

Layihə ilk dəfə olaraq belə şəxslərin prosessual statusunu müəyyənləşdirir, onlara məhkəmə müdafiəsi imkanlarını genişləndirir və mülkiyyət hüququnun daha effektiv qorunmasına xidmət edir.

Qeyd olunan təkliflərin nəzərə alınması da, hesab edirəm ki, qanunun tətbiqində yarana biləcək hüquqi risklərin minimuma endirilməsinə və mülkiyyət hüququnun daha etibarlı qorunmasına xidmət edəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Bəhruz müəllim, buyurun.

**Bəhruz Məhərrəmov.** Çox təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar, çox hörmətli Vasif müəllim. Əvvəlcə, Sizə müsbət münasibətinizə görə təşəkkür edirəm. Bir neçə məqamı qeyd etdiniz. Əvvəlcə, ondan başlayım ki, biz təqsirləndirilən şəxs olmayan, lakin "əmlak üzərinə həbs qoyulması barədə qərarla mənafeyinə toxunulan şəxs" dedikdə heç də tamamilə prosesə aidiyyəti olmayan, ümumiyyətlə, cinayətlə əlaqəsi olmayan şəxsi nəzərdə tutmuruq. Məsələn, kimsə cinayət edir, həmin cinayət yolu ilə əldə etdiyi vəsaitlə öz qardaşının, qohumunun adına bir ev alır. Təbii ki, cinayət prosesinin gedişində əldə olunmuş bu əmlak istənilən halda müsadirə olunmalıdır. Bu halda biz kimisə bu zəmində cinayət prosesində sanki zərərçəkən qismində göstərməyə çalışmamalıyıq.

Digər tərəfdən, burada kompensasiya, hüquqi varislik və vicdanlı alıcı məsələləri qeyd olundu. Ümumiyyətlə, istər prosessual qanunvericilikdə, istərsə də aidiyyəti qanunvericilikdə konkret olaraq indiki halda cinayət-prosessual qanunvericiliyində bu institutlar tam şəkildə oturuşub. Kompensasiya hansı formada alına bilir, yaxud bu alınma mexanizmi vətəndaşı, şəxsi qane etmirsə, daha sonrakı addımları hansı formada ata bilər, bununla bağlı aydın mexanizm var. Hər dəyişiklikdə bizim onu xüsusi vurğulamağımız, əlbəttə, qanunvericilik üçün əlavə yük ola bilər. Yəqin ki, buradakı hüquqşünaslar da mənim dediyimi təsdiqləyə bilər.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Qanun layihəsinə birinci oxunuşda münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin 5-ci məsələsinə keçirik. Bu məsələ Cinayət-Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Bu layihəyə də Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Bəhruz müəllim, mən yenə də sözü Sizə verirəm. Buyurun.

**Bəhruz Məhərrəmov.** Çox hörmətli sədr, əziz həmkarlar, möhtərəm Prezidentin imzası ilə Milli Məclisə daxil olmuş və hazırda birinci oxunuşda müzakirəyə çıxardığımız Cinayət-Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsi cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam və obyektiv araşdırılmasının effektivliyini artırmağı hədəfləyən mütərəqqi bir layihədir. Məlumdur ki, cinayət-prosessual qanunvericiliyinə əsasən aşkar şəraitdə törədilmiş bəzi yüngül cinayətlərin araşdırılmasının daha sürətli, səmərəli və az xərclə həll edilməsi üçün nəzərdə tutulmuş prosessual institut kimi sadələşdirilmiş icraat tətbiq edilir. Hazırda qüvvədə olan qanunvericiliyə əsasən məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə məlumatın təhqiqatçıya, müstəntiqə və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi

həyata keçirən prokurora daxil olduğu vaxtdan 10 gün müddətinə aparılır. Lakin təcrübə göstərir ki, cinayət törətmiş şəxsləri ifşa və cinayət məsuliyyətinə cəlb etmək üçün bir çox hallarda bu müddət kifayət etmir. Məsələn, Cinayət Məcəlləsinin 128-ci maddəsi üzrə qəsdən sağlamlığa yüngül zərər vurma zamanı qohumların üzləşdirilməsi ilə bağlı istintaq hərəkətinin aparılması, yaxud ekspertizanın aparılması və nəticənin gəlməsi zamanı vaxt uzanır və müddətin daha 20 gün artırılması üçün ayrıca prosessual hərəkətlər edilməsi bürokratik zərurəti meydana çıxır. Hazırkı layihə isə məlumatın aidiyyəti üzrə daxil olduğu vaxtdan 30 gün müddətinə təhqiqat aparılmasını nəzərdə tutmaqla bu məsələni, əlavə bürokratiyanı tamamilə kökündən həll edir.

Beləliklə, məhkəməyədək sadələşdirilmiş icraatın açılması və ya açılmasından imtina barədə qərarın qəbul edilməsi, təhqiqatın aparılması, prokuror nəzarətinin həyata keçirilməsi ilə bağlı müəyyən edilmiş bəzi prosessual müddətlərin artırılması sadələşdirilmiş icraat aparılarkən işin hərtərəfli araşdırılmasının və zəruri sübutların toplanılmasının daha etibarlı təmininə gətirib çıxarır.

Bundan başqa, diqqət etdinizsə, qanun layihəsinin məruzəsi zamanı biz müvafiq müddəalarda "şikayət" deyil, "məlumat" sözündən istifadə edirik. Yəni təklif olunur ki, bu məcəllənin bəzi maddələrində "şikayət" sözü "məlumat" sözü ilə əvəz edilsin. Çünki bəzi hallarda hüquq mühafizə orqanlarına məlumat verən şəxsin niyyətinin şikayət etmək deyil, sadəcə, baş vermiş cinayət hadisəsi barədə səlahiyyətli orqanı məlumatlandırmaq olur ki, bunun da şikayət adı altında rəsmiləşməsi doğru deyil.

Ən nəhayət, bildiyimiz kimi, törədilmiş və hazırlanan cinayət haqqında cinayət işinin başlanması üçün fiziki şəxslər və media subyektləri ilə yanaşı,

Cinayət-Prosessual Məcəllənin 205-ci maddəsinə əsasən hüquqi şəxslərin məlumatları da səbəb hesab edilir. Qanun layihəsində də məhz hüquqi şəxslər tərəfindən cinayət hadisəsi barədə məlumatın verilməsinin mümkünlüyü nəzərə alınaraq, böyük ictimai təhlükə törətməyən, aşkar cinayətlər üzrə yazılı məlumatda və şifahi məlumatın qəbul edilməsi barədə protokolda, həmçinin məhkəməyədək sadələşdirilmiş icraatın aparılmasının nəticələrinə dair yekun protokolda hüquqi şəxsə dair müvafiq məlumatın göstərilməsi nəzərdə tutulur.

Hörmətli həmkarlar, gördüyünüz kimi, layihə kifayət qədər vacib dəyişiklikləri əhatə edir və məsələnin əhəmiyyətini nəzərə alaraq dəstək verməyinizi xahiş edirik. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Bəhruz müəllim. Siz orada ikinci oxunuşa aid olan bir məsələyə də toxundunuz. Mən düşünürəm ki, ikinci oxunuşda gərək onu səsləndirəsiniz.

Əli müəllim, sizin komitənizin məsələsidir. İkisi də çox vacib məsələdir. Mən Vasif müəllimin çıxışına çox diqqətlə qulaq asdım. Düzü, tarixçidir, amma bu gün o, hüquqşünas kimi danışdı. Lazımdırsa, Vasif müəllimi çağırın, bunu bir müzakirə edin. Sizin komitənizin üzvüdür, yoxsa deyil?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Oldu, çox sağ olun.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Gəlin, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

İştirak edir 97
Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə 3 məsələ qalır və bu məsələlərin hamısı ikinci oxunuşda olan qanun layihələridir. Biz indi gündəliyin 6-cı məsələsinə keçirik. Bu məsələ Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Azər Əmiraslanova söz verirəm. Azər müəllim, buyurun.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi ikinci oxunuşda Milli Məclisin plenar iclasına təqdim olunur. Birinci oxunuş zamanı deputat həmkarlarımız tərəfindən layihəni dəstəkləyən çıxışlar edildi, məcəlləyə təklif edilən dəyişikliklərin əhəmiyyəti xüsusi vurğulandı. Eyni zamanda, layihə barədə bəzi təkliflər və opponent qeydləri də səsləndirildi. Bütün çıxışlara görə hörmətli həmkarlarımıza bir daha təşəkkür edirəm.

Qaldırılan məsələlərə ötən plenar iclasda tərəfimizdən münasibət bildirilmiş və komitənin qərarı ilə layihə ikinci oxunuşda plenar iclasın müzakirəsinə tövsiyə olunur.

Hörmətli həmkarlar, Gömrük Məcəlləsinə təklif edilən dəyişikliklərin mahiyyəti və məqsədi, konseptual əsasları barədə birinci oxunuşda geniş məlumat verilmişdi. Heç şübhəsiz, Azərbaycanın gömrük sistemi iqtisadi

idarəetmənin və tənzimləmənin mühüm istiqaməti kimi təşəkkül tapmış, milli iqtisadiyyatımızın formalaşması fonunda onillikləri əhatə edən inkişaf mərhələlərindən keçmişdir. Bu illər ərzində gömrük orqanları ölkəmizin iqtisadi sərhədlərinin qorunmasında, yerli istehsalçılara münasibətdə proteksionist siyasətin həyata keçirilməsində, qaçaqmalçılıqla mübarizədə, iqtisadi təhlükəsizliyin təmin edilməsində, fiskal yığımların toplanılmasında mühüm rol oynamışdır.

Gömrük Məcəlləsinə təklif olunan dəyişikliklər gömrük sisteminin əsaslarının qurulmasını deyil, onun möhkəmləndirilməsini, bu sistemin müasir dövrün tələblərinə uyğunlaşdırılaraq modernləşdirilməsini, yeni çağırışların diqqət mərkəzində saxlanılmasını nəzərdə tutur. Bir daha vurğulamaq istərdik ki, təqdim etdiyimiz layihə gömrük prosedurlarının sadələşdirilməsinə, rəqəmsallaşmanın geniş tətbiqinə, gömrük-biznes əməkdaşlığının daha da yaxşılaşmasına xidmət edir. Bu dəyişikliklər Azərbaycanın beynəlxalq ticarət sisteminə inteqrasiyasını gücləndirir, ölkənin tranzit imkanlarının genişlənməsinə töhfə verir və bunun üçün müvafiq hüquqi baza yaradır.

Hörmətli xanım sədr, hörmətli həmkarlar, qeyd edilənləri nəzərə alaraq, təqdim etdiyimiz qanun layihəsinin ikinci oxunuşda da müzakirəsini və qəbul edilməsini məqsədəuyğun hesab edirik. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, bilirsiniz ki, biz qanun layihəsini ikinci oxunuşda əsas kimi qəbul etməliyik. Mən indi qanun layihəsini əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
| --- | --- |
| Lehinə | 94 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik, ancaq yazılan yoxdur. Ona görə də səsverməyə keçirik. Bilirsiniz ki, qanun layihəsi ikinci oxunuşda maddələr üzrə səsə qoyulur. Bu layihədə iki maddə var. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Maddə qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
| --- | --- |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 7-ci məsələsi "Yaşıllıqların mühafizəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Aqrar siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Tahir Rzayevə söz verirəm. Tahir müəllim, buyurun.

**Tahir Rzayev,** *Milli Məclisin  Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli sədr, hörmətli millət vəkilləri, "Yaşıllıqların mühafizəsi haqqında" Qanuna edilmiş dəyişikliklər bilavasitə sahibkarlığın inkişafına, təsərrüfat fəaliyyəti ilə məşğul olan insanların hər qarış torpaq sahəsindən səmərəli istifadə etməsinə imkan yaradır. Sahələrdə mövcud olan yabanı bitkilərin, yaşıllıqların götürülməsi bu gün təsərrüfatlara müəyyən maneələr yaradır. Ona görə də qanuna edilmiş dəyişikliklər bilavasitə həmin sahələrdən təsərrüfat fəaliyyətinə mane olan yaşıllıqların götürülməsinin hüquqi bazasını və onların işlənmə mexanizminin hüquqi əsaslarını nəzərdə tutur.

Birinci oxunuşda qanuna edilmiş dəyişikliklər barədə ətraflı məlumat verilmişdi. Həmkar deputatlarım öz fikirlərini bildirmişdilər və mən o fikirlərin hər birini dəstəkləyirəm. Çünki bu, bilavasitə yaşıllıqlara göstərilən

qayğıdır, diqqətdir, ölkədə yaşıllıqların artırılmasına yönəldilən çağırışlardır.

İki deputat həmkarım Qüdrət Həsənquliyev və Azər Badamov təkliflərlə çıxış elədilər. Onlardan biri qanunun 13.6-2-ci maddəsindəki “irad” sözünün digər bir ifadə ilə əvəz olunması idi. Azər müəllimin çıxışında da pay torpaqlarında, eləcə də xüsusi mülkiyyətdə olan torpaqlarda müəyyən ağacların kəsilib sənaye məqsədi ilə istifadə edilməsi təklifi verildi. Qanunvericilik təşəbbüsü subyekti ilə əlaqə saxlanıldı. Birinci redaksiyanın yerində saxlanması məqbul hesab edildi. Ona görə də mən nəzərə alınmasını xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim.

Hörmətli həmkarlar, ikinci komitədə də baxılıb. Bu, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsidir. Bu gün bizə məlumatı komitə sədrinin müavini hörmətli Fatma Yıldırım verəcək. Buyurun.

**Fatma Yıldırım,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Qanun layihəsi bizim komitəmizdə də müzakirəyə çıxarılmışdı. Komitəmizin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, biz qanun layihəsinə gərək əsas kimi münasibət bildirək. Mən qanun layihəsini əsas kimi səsə qoyuram. Münasibətinizi bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar və media mənsubları. Müzakirə etdiyimiz qanun layihəsini, ümumilikdə, müsbət qiymətləndirirəm. Layihə xüsusi ilə pay torpaqlarında əkin və çoxillik əkmələr olan kənd təsərrüfatı təyinatlı torpaqlarda illərlə yığılıb qalmış narazılıqları aradan qaldırmaq gücündədir. Burada çox vacib bir məsələ var. Layihədə kol, gül-çiçək və ot bitkilərinin kəsilməsinə görə bərpa dəyərinin ödənilməsi nəzərdə tutulmur. Bu, çox gözəldir, ancaq böyük ağaclarla bağlı məsələ daha həssasdır. Pay torpağında böyük ağacların kəsilməsi zəruri olarsa, mövcud qaydalara görə, bərpa haqqı çox yüksək məbləğə çevrilə bilər. Bu isə qanunun əsas məqsədini zəiflədir. Təsəvvür edək ki, vətəndaş öz pay torpağını əkinəyararlı vəziyyətə gətirmək istəyir. Ağacı qanuni qaydada kəsir, amma sonra elə bir bərpa haqqı ödəməli olur ki, həmin torpaqdan illərlə əldə edə biləcəyi gəlir bu xərci kompensasiya etmir. Belə olan halda fermer yenə də torpaqdan istifadə edə bilmir, ya da bu işə girişməkdən çəkinir. Yəni biz problemi həll etmək istəyirik, amma başqa bir maliyyə baryeri də yaradılır. Ona görə hesab edirəm ki, müvafiq maddəyə yenidən baxılmalıdır. Pay torpaqlarında kənd təsərrüfatı fəaliyyətinə real maneə yaradan ağacların götürülməsi zamanı bərpa haqqı ya diferensiallaşdırılmalı, ya azaldılmalı, ya da müəyyən hallarda güzəşt mexanizmi tətbiq edilməlidir. Əks halda qanun bu məsələdə kağız üzərində yaxşı görünəcək, amma vətəndaş üçün praktik çıxış yolu yaratmayacaq.

Hörmətli xanım sədr, yeri gəlmişkən, daha bir ciddi məqamı da qeyd etmək istəyirəm. Bu gün məhkəmələrdə pay torpaqlarında kəsilmiş ağaclarla bağlı çoxlu işlər var. İnsanlara yüksək cərimələr yazılıb, bəzi hallarda hətta həbslər də olub. Əgər biz bu gün bu sahədə problem olduğunu etiraf ediriksə və qanunla yeni, daha ədalətli mexanizm yaradırıqsa, o zaman bu yanaşma gərək yalnız gələcəyə aid edilməsin. Təklif edirəm ki, qanuna keçid müddəası əlavə olunsun və bu günə qədər oxşar məsələlərlə bağlı başlanmış inzibati, mülki və cinayət işlərinə də bu qanunun humanist və ədalətli yanaşması şamil edilsin. Əlbəttə, söhbət qəsdən meşə qırılmasından və ekoloji cinayətlərdən getmir. Söhbət öz pay torpağında kənd təsərrüfatı fəaliyyəti aparmaq istəyən, amma qanunvericilik boşluqları və sərt mexanizmlər səbəbindən cəzalandırılan insanlardan gedir. Bu qanun kəndlinin torpağa qayıtmasına, pay torpaqlarının istifadəsiz qalmamasına, aqrar istehsalın artmasına xidmət etməlidir. Ona görə də layihəni dəstəkləyirəm, amma hesab edirəm ki, bərpa haqqı və əvvəlki işlərə tətbiq məsələsi mütləq nəzərə alınmalıdır. Qanun yalnız icazə verməməli, həm də insanlara real nəfəs verməlidir.

Yeri gəlmişkən, xanım sədr, qeyd etmək istəyirəm ki, dünən bir məhkəmə prosesi olub. Mən İmişlidə idim. Məhkəmə qonşu rayonda keçirilirdi. Orada iştirakçılardan – şahidlərdən biri mənim elə öz sinif yoldaşım idi. Sonra onunla görüşdüm, o bu məsələni daha çılpaqlığı ilə mənə izah etdi. Gördüm ki, doğrudan da, çox çarəsiz insanlar öz pay torpağında ağac kəsib. Bu gün onlar məhkəmədə çox ağır bir mühakimə ilə üzləşirlər. Çox böyük cərimə və hətta həbs də oluna bilərdilər. Hakim sağ olsun, o məsələni dayandırıb. Bəlkə deyilən bu qanunu nəzərdə tutaraq dayandırıb, yenidən təxirə salıb. Amma mən öyrəndim ki, belə

məsələlər onlarcadır və müxtəlif məhkəmələrdə keçirilir. O baxımdan, mən düşünürəm, bu qanun onlara da müəyyən mənada tətbiq edilməlidir ki, o insanlar cəzalandırılmasın, yaxud ciddi cərimə məbləğləri də ödəməli olmasınlar.

Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun.

Naqif Həmzəyev. Buyurun.

**Naqif Həmzəyev.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, mən təklif olunan bu dəyişiklikləri dəstəkləyirəm. Çox mütərəqqi dəyişikliklərdir. Ancaq icazənizlə, bir məsələyə qısaca toxunmaq istəyirəm. Təbii ki, bu qanunda və bu dəyişikliklərdə kənd təsərrüfatı təyinatlı torpaqlardan söhbət gedir. Ancaq gəlin, etiraf edək, şəhər mərkəzlərində, qəsəbə mərkəzlərində və rayon mərkəzlərində də çay yataqları, arxlar, kanallar var ki, orada da bu cür kol-koslar olur və onların təmizlənməsi, həqiqətən də, ciddi problemə çevrilir. Vətəndaşlar dəfələrlə müraciət etsələr də, aidiyyəti qurumlar çox gec cavablandırırlar və nəticə etibarı ilə çox eybəcər bir vəziyyət yaranır. Bu baxımdan da, mən təklif edərdim ki, məhz bu çay yataqları, kanallar və arxlarla əlaqədar da burada bir müddəa olsun.

Gəncə şəhərinin timsalında mən Xan arxının adını qeyd etmək istəyirəm. Tarixi bir arxdır və bu, şəhərin ərazisində yerləşir. Ancaq şəhərin bir başından ta o başına qədər gedir və digər rayonların ərazisinə keçir. İnanın ki, oranı təmizləmək olmur. Kommunal idarəyə də müraciət olunanda onlar çox zaman gec cavab verirlər. Orada çox eybəcər bir vəziyyət yarananda, – zibillər artaraq kol-kosa ilişib qalırlar, –ondan sonra nə isə eləməyə gəlirlər. Çox zaman aidiyyəti nazirlik də, yerli qurumlar da bu məsələyə müsbət rəy vermirlər. Vətəndaş özü isə o kol-kosu kəsəndə

böyük cərimələrlə qarşılaşır. Ona görə heç kim artıq bu məsələlərə qarışmır. Mümkündürsə, kənd təsərrüfatı təyinatlı olmasa da, ancaq su keçən yerlərə də bunu şamil edək ki, bu məsələlər asan həll olunsun.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Tahir müəllim, təkliflər səsləndi. Buyurun.

**Tahir Rzayev**. Hörmətli sədr, keçən səfər də yoldaşlar danışdılar. Burada söhbət kənd təsərrüfatı təyinatlı torpaqlardan gedir, yaşıllıqların qorunmasından getmir. Biz də dedik, Siz də keçən dəfə xatırlatdınız ki, əlbəttə, yaşıllıqları qorumaq lazımdır. Ancaq hər birimiz yaxşı bilirik ki, pay torpaqlarında ağaclar olmayıb. Əkinəyararlı torpaqlar olub, torpaq islahatı gedib və bu torpaqlar verilib. Əgər həmin torpaqda insan əkib-becərməyibsə, orada yabanı bitkilər artıbsa, indi orada ağac böyüyübsə, o onun kəsilməsinə cavabdeh olmalıdır. Bu torpaqları alıblar, uzun illər də əkilib-becərilməyib, indi orada yabanı kol-kos bitib. Bu gün dövlətin qayğısı budur ki, həmin kol-kos götürülsün, oradakı ağaclar kəsilməsin. Bunun günahı həmin insandadır ki, həmin torpağı uzun müddət əkib-becərməyib, korlaşdırıb, yabanı vəziyyətə gətirib. İndi də biz deyirik ki, ağaclar kəsilməsin. Ağacların kəsilməsinə görə o cərimələrin tətbiq olunması qanunauyğundur. Bu olmalıdır. Çünki belə olmasa, insanlar yaşıllıqları kəsib məhv edərlər.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Komitədə bu məsələlərin hamısını bir daha müzakirə edin. Lazımdırsa, deputatı da çağırın. O faktlara da baxmaq lazımdır.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Biz maddələr üzrə səsverməyə keçirik. Bu layihədə 3 maddə var. 1-ci maddəyə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Maddə qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi mən 3-cü maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi, çox sağ olun.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin sonuncu məsələsinə çatdıq. Bu məsələ İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Bu gün bizə məlumatı komitənin üzvü hörmətli Kamal Cəfərov verəcək. Kamal müəllim, buyurun.

**Kamal Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Qanun layihəsi haqqında birinci oxunuş zamanı geniş məlumat vermişəm. Layihədə hər hansı bir dəyişiklik yoxdur. Lakin İnzibati Xətalar Məcəlləsinin 27.4-cü maddəsi ilə bağlı həm Naqif müəllim ümumi müzakirələr zamanı məsələ qaldırdı, həm də hazırda bir sıra kütləvi informasiya vasitələri tərəfindən çoxlu müraciətlər daxil olur, bununla bağlı sosial müzakirələr də aparılır. İcazənizlə, bu 20 ballıq icazə-cərimə limiti ilə bağlı qısa və fərdi mövqeyimi ifadə etmək istəyirəm.

Hazırkı İnzibati Xətalar Məcəlləsi 2016-cı il martın 1-dən qüvvəyə minib. Məhz o zaman balla qiymətləndirilən inzibati xətaların sayı 14 olub.

Ümumi balların sayı isə 54 olub. 2016-cı ildə sürücü sistemdəki bütün mümkün balların 37 faizini, yəni 20 bal toplayanda sürücülük hüququnu 6 ay müddətinə itirirdi. Bu nisbət o günün şərtlərinə tam mütənasib idi. Ancaq son 10 ildə yol hərəkəti qaydaları, mikromobilliklə bağlı bir sıra hüquqi islahatlar keçirilibdir, dəyişikliklər olubdur və bu müddət ərzində balla qiymətləndirilən inzibati xətaların sayı 14-dən 27-yə, sistemdəki ümumi bal dəyəri isə 54-dən 91-ə çatıb. Həm xəta sayı, həm də ümumi bal həcmi təxminən iki dəfəyə yaxın artıb. Deməli, təkcə taksi sürücülərinin deyil, ümumilikdə, bütün sürücülərin xəta etmə riski, səhv etmə payı da artıb və məsuliyyət dairəsi genişlənib. Ancaq limit yenə eynidir və bu o deməkdir ki, sürücü bu gün sistemdə bütün mümkün balların yalnız 22 faizini toplamaqla sürücülük hüququnu itirir.

2016-cı ildə bu göstərici 37 faiz olub. Nəzərə alsaq ki, həmin orijinal 37 faizlik nisbəti tam bərpa etmək üçün riyazi olaraq limit 34 bal olmalıdır, lakin məcəllənin çəkindirici qüvvəsini qorumaq, həm də cəzanın mütənasibliyini təmin etmək məqsədi ilə daha mühafizəkar mövqe tutaraq təklif edirəm, 20 ballıq cərimə limiti 30 bala qaldırılsın və ya yüksək risk daşımayan passiv infrastruktur xarakterli pozuntulara görə, sadəcə, cərimə tətbiq olunsun. Çünki əksər ölkələrdə belədir. Ancaq istənilən halda bu məsələ ilə bağlı aidiyyəti qurumlar araşdırmalar aparmalıdır, təkliflər hazırlanmalıdır, çünki bu, təkcə limit məsələsi deyil. Yeni yanaşma lazımdır. Hazırda kütləvi informasiya vasitələrində də belə bir səhv təəssürat formalaşdırılıb ki, Milli Məclisə bununla bağlı hansı isə bir layihə daxil olub və müzakirələr aparılır. Ona görə hesab edirəm ki, bu məsələ ilə bağlı ixtisaslaşmış qurumlar təkliflər hazırlamalıdır, özləri müzakirələr aparmalıdır və ondan sonra bu məsələlərə yenidən baxıla bilər.

Çox sağ olun, hörmətli xanım sədr.

**Sədrlik edən.** Çox sağ olun, ətraflı məlumat verdiniz.

Hörmətli həmkarlar, bu da ikinci oxunuşda olan qanun layihəsidir. Ona görə əsas kimi qəbul etməliyik. Buyurun, əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

İndi isə müzakirəyə keçirik. Aydın Hüseynov. Buyurun.

**Aydın Hüseynov.** Xanım sədr, müzakirə etdiyimiz qanun layihəsinin ən əsas maddələrindən, yəni o maddəyə edilən dəyişikliklərdən biri də 253-1-ci maddədədir. Bu maddə Yaşıllıqların mühafizəsi haqqında qanunvericiliyin pozulması adlanır. Bu qanunvericilik pozulduğu halda cərimələr nəzərdə tutulur. Mən hesab edirəm ki, çox düzgün yanaşmadır. Bayaq bununla bağlı hörmətli həmkarlarım, eyni zamanda, Tahir müəllim də öz fikirlərini bildirdilər. Burada konkret yanaşma mövcuddur ki, hansı hallarda bu cərimələr tətbiq olunur. Yaşıllığın məhv olunmasının qarşısının alınması üçün, hüquqi baza yaratdığı üçün qanun layihəsinə səs verəcəyəm. Eyni zamanda, bu kontekstdə bəzi fikirlərimi də bura əlavə etmək istəyirəm.

Məlumdur ki, yaşıllıqların təkcə kəsilməsi deyil, budanma prosesləri də həyata keçirilir. Son dövrlərdə Bakı şəhərində çox böyük parklarımız

salınıb: Qış parkı, Mərkəzi park və sair. Eyni zamanda, yol kənarlarında, magistral yol kənarında çox böyük yaşıllıq zolaqları yaradılıb. Burada hər il budama işləri aparılır. Bu işlər aparılarkən bəzi hallarda qeyri-peşəkar yanaşmalar olur. Ağacların aşağı budaqları tamamilə kəsilir və yuxarıda çox az miqdarda yaşıllıq qalır. Bu da ağacın yaşıllığını itirir, ağaclar dirəyə bənzəyirlər. Bu, həm ağacın estetik gözəlliyini itirir, həm də sonradan ağacın quruması üçün də bir şərait yaradır. Ona görə hesab edirəm ki, bu budama işləri də peşəkarcasına aparılmalıdır və əgər bu hallar təkrarlanarsa, onların qarşısının alınması üçün inzibati cəzaların tətbiq olunması daha məntiqə uyğun olar.

Xanım sədr, fürsətdən istifadə edərək digər bir fikrimi də ifadə etmək istəyirəm. Qaradağ rayonunun Ələt qəsəbəsində park var. 70 il bundan əvvəl salınıb. O parkın unikallığı və maraqlı cəhəti ondan ibarətdir ki, 70 il bundan əvvəl dəniz vasitəsi ilə Lənkərandan, digər rayonlardan torpaq gətirilib və belə deyək ki, səhrada bir park salınıb. Lakin o park son 5-10 ildir, ümumiyyətlə, baxımsız şəkildədir. Səbəb də odur ki, park Dəmir Yolu İdarəsinin balansındadır. Əlbəttə, mən hesab edirəm ki, bu, Dəmir Yolu İdarəsinin günahı deyil. Çünki məlumdur ki, bu idarə bu gün daha böyük, qlobal layihələrdə iştirak edir və bu onun funksiyasına və spesifikasına uyğun bir sahə deyil. Ona görə də həmin parkın ya Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, yaxud da Bakı Şəhər İcra Hakimiyyətinin balansına keçirilməsi çox vacibdir. Çünki qarşıdan da yay mövsümü gəlir. O parkın, demək olar ki, artıq 60 faizi baxımsızlıq və digər səbəblərdən məhv olub.

Onu da qeyd edək ki, Ələt Azərbaycanın ən böyük sənaye şəhərciyinə çevrilməkdədir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt azad iqtisadi zonası Azərbaycanda xaricdən gələn insanların, iş adamlarının toplandığı

bir məkandır. Eyni zamanda, bura yaşıllığın az olduğu bir yerdir. Ona görə də bu məsələlərin həllini də müvafiq qurumlardan xahiş edirəm.

Təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Azər Əmiraslanov. Buyurun.

**Azər Əmiraslanov.** Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Təqdim edilmiş qanun layihəsi tərəfimizdən dəstəklənir. Hesab edirik ki, istər hüquqi, istərsə də fiziki şəxslər olsun, öz öhdələrinə düşən vəzifələri yerinə yetirməlidirlər və bununla bağlı məsuliyyət tədbirləri görülməlidir.

Mən çıxışımda daha çox İnzibati Xətalar Məcəlləsində ərzaq balansının tərtib edilməsi ilə bağlı məlumatların verilməməsinə görə müəyyən edilən məsuliyyət tədbirləri ilə bağlı fikirlərimi bildirmək istərdim. Ümumiyyətlə, sual oluna bilər ki, nə üçün ərzaq balansının tərtib edilməsi bu qədər əhəmiyyətlidir, vacibdir? Bu məlumatların verilməməsinə görə fermerlərin, kənd təsərrüfatı istehsalçılarının məsuliyyəti artırılır. Ümumiyyətlə, ərzaq balansı olduqca strateji bir sənəddir və burada daha çox ölkənin ərzaq təhlükəsizliyi, ölkəmizin ərzaq təminatı, idxaldan asılılıq məsələləri və yerli istehsalın daxili tələbatı, istehlakı nə dərəcədə ödəyə biləcəyi məsələləri öz əksini tapır. Möhtərəm cənab Prezidentin yanında keçirilən aqrar müşavirədən sonra bu məsələlər xüsusi ilə aktuallaşıb. Yəni aqrar statistika, uçot, informasiya sistemi. Bu əsasda qeyd etmək istərdik ki, gələcək dövrdə həm kənd təsərrüfatında uçotun, statistikanın təkmilləşdirilməsinə ciddi ehtiyac var. Onu da xüsusi olaraq vurğulamaq istərdim ki, ölkəmizdə kənd təsərrüfatına, aqrar sahəyə ölkə rəhbərliyi tərəfindən, cənab Prezident tərəfindən olduqca həssas bir münasibət göstərilir. Təsadüfi deyildir ki, kənd təsərrüfatı həm sosial, həm iqtisadi,

həm də təhlükəsizlik məsələsi kimi qeyd edilir. Bu da onunla bağlıdır ki, ölkə əhalisinin yarısı kənd yerlərində yaşayır və kənd təsərrüfatında məşğul əhali, bütövlükdə, ölkə üzrə məşğul əhalinin 40 faizini təşkil edir. Belə olan halda, kənd təsərrüfatının inkişafı regionların inkişafına, yoxsulluğun azalmasına, işsizliyin təmin edilməsinə təsir edir. Bu baxımdan, kənd təsərrüfatı olduqca strateji bir sahədir.

Hörmətli xanım sədr, təqdim olunan qanun layihəsi kontekstində mən onu qeyd etmək istərdim ki, bəli, əgər kənd təsərrüfatı istehsalçıları zəruri məlumatları, xüsusi ilə də ərzaq balansı ilə bağlı məlumatları təqdim etmirlərsə, bunun üçün məsuliyyət tədbirləri görülməlidir. Amma kəndli, fermer heç bilmir ki, ərzaq balansı nədir. Üstəlik də, biz nəzərə almalıyıq ki, kəndlilər, kənd təsərrüfatı istehsalçıları, fermerlər daim dövlətin, dövlət başçısının qayğısının obyekti olub, yəni dövlət dəstəyinin obyekti olub. Biz birdən-birə bu zəruri məlumatlandırmanı aparmadan, izahat işləri görmədən, informasiya-məsləhət xidmətini səmərəli təşkil etmədən fermerləri, kənd təsərrüfatı istehsalçılarını potensial cərimə ödəyiciləri kimi görməməliyik. Bu baxımdan, biz hesab edirik ki, aqrar siyasəti həyata keçirən dövlət qurumu informasiya-məsləhət xidmətini səmərəli təşkil etməlidir.

Burada bizim hörmətli millət vəkillərinin böyük əksəriyyəti aqrar rayonları təmsil edirlər. Kəndlinin əsas qayğısı əkindir, biçindir. Bəzən biz onun da şahidi oluruq ki, ümumiyyətlə, fermerlərin dövlətin onlara göstərdiyi qayğıdan, dövlət başçısının aqrar sahədə həyata keçirdiyi təşəbbüslərdən, dəstək tədbirlərindən xəbərləri olmur. Ona görə də kənd təsərrüfatına məsul olan dövlət qurumlarının ən əsas vəzifələrindən biri, əsas missiyası qeyd etdiyimiz informasiya-məsləhət xidmətidir, aqrar

biliklərin yayılmasıdır, məlumatların çatdırılmasıdır. Məhz bu baxımdan, biz hesab edirik ki, bu məsuliyyət tədbirləri yalnız bu şərtlə artırılmalıdır ki, zəruri məlumatlandırma, izahat işi aparılsın. Yalnız bundan sonra müvafiq tədbirlər görülə bilər. Yoxsa kəndlinin qapısını döyüb, bu şəkildə ondan cərimə tələb edilməsi ədalətli olmazdı.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim. Siz bu məsələni qaldırdınız deyə, mən qeyd edim ki, yaxında Kənd Təsərrüfatı Nazirliyi ilə bizim dinləməmiz olacaq, özü də bir deyil. Ona görə də Sizin dediyiniz bu məsələlər o dinləmələr zamanı da qaldırılsa, mən düşünürəm ki, çox düzgün olar. Çünki bizim dediyimiz maarifləndirmə, əslində, məlumatlandırma mənasına gəlir. Təbii ki, bu, tək deputatın işi deyil. Deputat hansı isə rayonda bu sahədə bilikləri ilə bölüşə bilər və sair. Vacib məsələlərdir. Mən düşünürəm ki, Siz və Aqrar siyasət komitəsinin üzvlərindən biri... Mən, ümumiyyətlə, elə bununla bağlı danışacaqdım. Dünən biz belə bir qərara gəldik. Mən bununla bağlı Tahir müəllimlə hələ heç danışmamışam.

Tahir müəllim, xahiş edirəm, oturun.

Sadəcə, Siz dediniz deyə, mən dedim.

Həm sizin komitəniz, həm Tahir müəllimin komitəsi, həm də Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi birlikdə. Mən bununla bağlı komitə sədri ilə danışacağam.

Hörmətli həmkarlar, biz qanun layihəmizə qayıdırıq. Deməli, müzakirələr bitdi, daha çıxış etmək istəyən yoxdur. Maddələr üzrə səsverməyə keçirik. Qanun layihəsi 2 maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə qəbul edildi. Çox sağ olun.

Mən 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm. Növbəti iclasın vaxtı sizə deyiləcək. Sağ olun.

## EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

*5 iyun 2026-cı il*

**Anar Məmmədov.** Bu gün diqqətinizi Azərbaycan-ABŞ münasibətlərində mühüm siyasi və hüquqi mövzulardan biri olan, ABŞ Konqresinin hələ 1992-ci ildə ədalətsiz şəkildə qəbul etdiyi “Azadlığa Dəstək Aktı”na 907-ci düzəliş və onun fəaliyyətinin dayandırılması müddətinin uzadılması məsələsinə cəlb etmək istəyirəm.

Məlum olduğu kimi, 2001-ci ilin 11 sentyabr hadisələrindən sonra qlobal terrorizmə qarşı mübarizədə Azərbaycanın göstərdiyi qətiyyətli və strateji dəstək nəticəsində ABŞ Prezidentinə 907-ci düzəlişin hüquqi qüvvəsini hər il dayandırmaq (waiver) səlahiyyəti verilmişdir. Lakin biz bu məsələyə hər zaman fundamental bir yanaşma nümayiş etdirmişik: 907-ci düzəlişin özü tamamilə ədalətsiz, beynəlxalq hüququn prinsiplərinə zidd və birtərəfli bir qərardır.

1990-cı illərin əvvəllərində torpaqları işğala məruz qalan, bir milyondan çox qaçqın və məcburi köçkün ordusu ilə üz-üzə qalan tərəf Azərbaycan olduğu halda, ölkəmizə qarşı belə bir sanksiyanın tətbiq edilməsi tarixin ən böyük siyasi paradokslarından və ədalətsizliklərindən biri idi.

Bu gün Cənubi Qafqazda tamamilə yeni bir reallıq mövcuddur. Azərbaycan öz gücü, qətiyyəti və müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib. Biz regionda davamlı sülhün, delimitasiya və demarkasiya proseslərinin, nəqliyyat-kommunikasiya xətlərinin açılmasının tərəfdarıyıq.

Belə bir şəraitdə ABŞ administrasiyasının regional təhlükəsizlik və tərəfdaşlıq naminə bu düzəlişin dayandırılması müddətini uzatması

reallığın qismən dərk olunmasıdır. Lakin biz hesab edirik ki, tam ləğv edilməlidir. 907-ci düzəliş hər il müvəqqəti olaraq dayandırılmamalı, ABŞ Konqresi tərəfindən tamamilə və birdəfəlik ləğv edilməlidir. Çünki bu düzəlişin hüquqi müstəvidə qalması iki ölkə arasındakı strateji tərəfdaşlıq ruhuna kölgə salır.

Təzyiq mexanizmi olmamalıdır. Bu düzəliş bəzi ermənipərəst konqresmenlər və lobbi qrupları tərəfindən Azərbaycana qarşı bir siyasi təzyiq aləti kimi istifadə edilməyə çalışılır. Lakin hər kəs bilməlidir ki, Azərbaycanla təzyiq və şərt dilində danışmaq qeyri-mümkündür.

Regional sülhə xidmət etməlidir. ABŞ-nin regionda balanslı, ədalətli və vasitəçilik missiyasına uyğun siyasət yürütməsi üçün ilk növbədə bu növ diskriminativ qərarlardan tamamilə imtina edilməlidir.

Azərbaycan bu gün heç bir xarici yardımdan asılı olmayan, öz iqtisadi və hərbi qüdrəti ilə regionun diktə edən dövlətidir. Biz ABŞ daxil olmaqla, bütün beynəlxalq tərəfdaşlarımızla bərabərhüquqlu, qarşılıqlı hörmət və daxili işlərə qarışmamaq prinsiplərinə əsaslanan münasibətlərin tərəfdarıyıq.

Ümid edirik ki, Vaşinqton regiondakı yeni geosiyasi reallıqları düzgün qiymətləndirəcək, süni maneələri və bu kimi köhnəlmiş, heç bir effektivliyi olmayan düzəlişləri tamamilə gündəlikdən çıxaracaqdır.

**Bədəl Bədəlov.** 28 May – Müstəqillik Günü xalqımızın çoxəsrlik dövlətçilik tarixində xüsusi yer tutur. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması yalnız xalqımız üçün deyil, bütün Şərq və müsəlman aləmi üçün mühüm tarixi hadisə idi. Çünki məhz həmin gün Şərqdə və müsəlman dünyasında ilk demokratik, hüquqi, dünyəvi parlament respublikası quruldu. Bu hadisə xalqımızın azad yaşamaq əzmini, milli dövlətçilik

ənənələrinə sadiqliyini və müstəqil dövlət qurmaq iradəsini bütün dünyaya nümayiş etdirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması təsadüfi hadisə deyildi. XIX əsrin sonu və XX əsrin əvvəllərində xalqımızın qabaqcıl ziyalıları, maarifçiləri və mütəfəkkirləri milli oyanış ideyalarını geniş yayaraq azadlıq və istiqlal düşüncələrinin formalaşmasına mühüm töhfələr verdilər. O dövrdə yaranmış milli dirçəliş ruhu 1918-ci ildə müstəqil dövlətin qurulması ilə nəticələndi. Həmin il mayın 28-də İstiqlal Bəyannaməsinin qəbul olunması xalqımızın milli mənlik şüurunu daha da gücləndirdi və öz müqəddəratını təyin etməyə qadir olduğunu təcəssüm etdirdi.

Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti dövlət quruculuğu istiqamətində olduqca mühüm addımlar atdı. İlk parlament və hökumət yaradıldı, dövlət atributları təsis edildi, milli ordu formalaşdırıldı, dövlət bayrağı qəbul olundu, Azərbaycan vətəndaşlığı institutu yaradıldı. Dövlət idarəçiliyində demokratik prinsiplər əsas götürüldü, bütün vətəndaşlara milli, dini və irqi mənsubiyyətindən asılı olmayaraq bərabər hüquqlar verildi. Bu amillər həmin dövr üçün olduqca mütərəqqi və nümunəvi yanaşma idi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə həyata keçirilən islahatlar elm, təhsil və mədəniyyət istiqamətlərini də əhatə edirdi. 1918-ci ildə qəbul edilən qərarla məktəblərdə tədrisin ana dilində aparılmasına başlanıldı. 1919-cu ilin sentyabrında Xalq Cümhuriyyəti Parlamenti tərəfindən Bakı Dövlət Universitetinin təsis edilməsi haqqında Qanun qəbul edildi. Bu ali təhsil ocağının fəaliyyətə başlaması milli və peşəkar kadrların hazırlanması istiqamətində atılmış mühüm addım idi. Həmin amillər milli kadr hazırlığının və maarifçilik siyasətinin inkişafına böyük təkan verdi. Eyni zamanda,

məhkəmə və ədliyyə sistemi formalaşdırıldı, dövlət idarəçiliyinin hüquqi əsasları yaradıldı.

Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasət kursunun əsas məqsədi yeni yaranmış dövləti beynəlxalq aləmdə tanıtmaq idi. Paris Sülh Konfransında iştirak edən nümayəndə heyəti bu istiqamətdə uğurla fəaliyyət göstərdi. Dünyanın bir sıra dövlətləri ilə diplomatik münasibətlər quruldu. 1920-ci ildə Azərbaycanın beynəlxalq hüququn subyekti kimi tanınması dövlətimizin hüquqi-siyasi mövqeyinin möhkəmlənməsinə mühüm zəmin yaratdı.

Ulu Öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixi rolunu yüksək dəyərləndirərək qeyd edirdi: “Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində – XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır”.

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə üçrəngli bayrağımızın rəsmi dövlət bayrağı kimi qaldırılması müstəqilliyə aparan yolun başlanğıcı oldu. Bu cəsarətli addım xalqımızın azadlıq arzularının və milli iradəsinin ifadəsi idi. 1991-ci il oktyabrın 18-də qəbul edilən “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktında 1918-ci ilin İstiqlal Bəyannaməsinə istinad olunaraq müasir Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu təsbit edildi. Bununla da tarixi dövlətçilik ənənələrinin hüquqi və siyasi davamlılığı bir daha təsdiq olundu.

XX əsrin sonlarında xalqımız yenidən dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz ağır siyasi böhranla üzləşdi. Məhz belə mürəkkəb

şəraitdə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev dövlətçiliyin qorunması və möhkəmləndirilməsi istiqamətində misilsiz xidmətlər göstərdi. Sabitlik təmin olundu, dövlət strukturları formalaşdırıldı, milli maraqlara əsaslanan siyasi kurs müəyyən edildi. Ulu Öndərin rəhbərliyi ilə milli dövlətçilik ənənələri daha da inkişaf etdirildi, xalqımızın tarixi yaddaşı və milli mənlik şüuru gücləndirildi. Ümummilli Lider vurğulayırdı ki, müstəqilliyi qorumaq, saxlamaq o müstəqilliyi əldə etməkdən qat-qat çətin bir vəzifə idi.

Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan dünyanın nüfuzlu və söz sahibi olan dövlətlərindən birinə çevrilib. Ölkəmizin iqtisadi gücü artıb, beynəlxalq mövqeləri möhkəmlənib, sosial rifah istiqamətində mühüm layihələr həyata keçirilib. Dövlətimizin başçısı tərəfindən 2018-ci ilin ölkəmizdə “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan edilməsi Şərqdə ilk parlamentli respublikanın tarixi irsinə verilən yüksək dəyərin ifadəsidir.

Prezident İlham Əliyevin dediyi kimi, müstəqilliyimiz əbədidir, dönməzdir, sarsılmazdır! Yaşasın güclü, müstəqil Azərbaycan! Bu fikir müasir Azərbaycanın siyasi iradəsini, dövlətçilik əzmini və gələcəyə inamını ifadə edir. Xalqımız Azərbaycan Xalq Cümhuriyyəti dövründə əsası qoyulan istiqlal yolunu bu gün də uğurla davam etdirir.

2021-ci ildə qəbul edilmiş “Müstəqillik Günü haqqında” Qanuna əsasən mayın 28-i Müstəqillik Günü, oktyabrın 18-i isə Müstəqilliyin Bərpası Günü elan edilmişdir. Müasir Azərbaycan öz tarixi köklərinə, milli dəyərlərinə və Azərbaycan Xalq Cümhuriyyətinin ideallarına sadiqdir. 28 May – Müstəqillik Günü xalqımızın azadlıq ruhunun, milli birlik və həmrəyliyinin, dövlətçilik ənənələrinin təntənəsidir. Bu müqəddəs tarix xalqımızın

yaddaşında əbədi yaşayacaq, gələcək nəsillərə milli qürur və vətənpərvərlik nümunəsi kimi ötürüləcəkdir.

* * *

Müasir dövrdə kənd təsərrüfatının inkişafı sosial rifahın yüksəldilməsi, bölgələrin davamlı tərəqqisi, məşğulluğun artırılması və milli iqtisadiyyatın şaxələndirilməsi baxımından mühüm strateji istiqamət hesab olunur. Prezident İlham Əliyevin kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə vurğuladığı fikirlər bir daha təsdiqləyir ki, bu sahənin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri olaraq qalır. Son illər həyata keçirilən genişmiqyaslı regional inkişaf proqramları, infrastruktur layihələri, subsidiyalar və sosial təşəbbüslər kənd təsərrüfatının inkişafına mühüm təkan verib.

2004-cü ildən başlayaraq qəbul edilən regional inkişaf proqramları bölgələrin simasının dəyişməsində mühüm rol oynayıb. Həmin proqramlar nəticəsində regionlarda yol infrastrukturu yenilənib, qazlaşdırma səviyyəsi yüksəlib, elektrik enerjisi ilə təminat tam şəkildə yaxşılaşdırılıb, su anbarları və suvarma sistemləri yaradılıb. Taxtakörpü, Şəmkirçay və digər mühüm su layihələri kənd təsərrüfatında məhsuldarlığın artırılmasına geniş imkanlar açıb. Kanalların yenidən qurulması və yeni suvarma sistemlərinin yaradılması xüsusi ilə aqrar sahədə dayanıqlı inkişafın təmin olunmasına xidmət edir.

Bu gün bölgələrdə həyata keçirilən genişmiqyaslı infrastruktur layihələri kənd həyatını əvvəlki dövrlərlə müqayisədə tamamilə dəyişib. Qazlaşdırmanın yüksək səviyyəyə çatdırılması, yolların tikilməsi, elektrik enerjisi təminatının gücləndirilməsi kəndlərdə yaşayış səviyyəsinin

yüksəlməsinə səbəb olub. Bunun nəticəsində kənd təsərrüfatı məhsullarının istehsalında ciddi artım qeydə alınıb. Üzümçülük, pambıqçılıq, fındıqçılıq, sitrusçuluq və digər ənənəvi sahələrin inkişafına dair qəbul edilmiş dövlət proqramları aqrar sektorda yeni mərhələnin formalaşmasına səbəb olub.

Kənd təsərrüfatının inkişafında subsidiyaların və güzəşt mexanizmlərinin rolu xüsusi ilə diqqət çəkir. Dövlət tərəfindən fermerlərə yanacaq, gübrə və digər sahələr üzrə təqdim edilən güzəştlər onların fəaliyyətinin genişlənməsinə və məhsuldarlığın artmasına imkan yaradır. Güzəştli kreditlərin verilməsi, metodiki dəstəyin göstərilməsi və müxtəlif təşviq mexanizmlərinin tətbiqi aqrar sahənin inkişafında mühüm rol oynayır. Dünyada nadir tətbiq olunan çoxşaxəli subsidiya sistemi kənd təsərrüfatının dayanıqlı inkişafına xidmət edən əsas vasitələrdən biridir.

Prezident İlham Əliyevin müşavirədə qeyd etdiyi mühüm məqamlardan biri də urbanizasiya prosesinə münasibət idi. Bu gün dünyanın bir çox dövlətlərində müşahidə olunan kəndlərdən şəhərlərə axın sosial və iqtisadi problemlər yaradır. Məqsəd şəhərlərə köçü artırmaq deyil, əksinə, şəhərlərdən kəndlərə qayıdış prosesini stimullaşdırmaqdır. Bunun üçün kəndlə şəhər arasındakı fərqlərin minimuma endirilməsi əsas şərtlərdən biridir. Məhz regional inkişaf proqramlarının əsas məqsədi də bölgələrdə elə sosial-iqtisadi şərait yaratmaqdır ki, insanlar öz doğma torpaqlarında yaşamağa və çalışmağa üstünlük versinlər.

Bu istiqamətdə həyata keçirilən sosial infrastruktur layihələri də böyük əhəmiyyət daşıyır. Bölgələrdə müasir xəstəxanaların tikilməsi, məktəblərin əsaslı təmir olunması və yeni təhsil müəssisələrinin istifadəyə verilməsi regionların sosial həyatına mühüm töhfə verib. Minlərlə məktəbin yenidən

qurulması və təhsil infrastrukturunun müasirləşdirilməsi kənd yerlərində həyat keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Bu siyasət bölgələrdə məşğulluğun artırılmasına, insanların torpağa bağlılığının güclənməsinə şərait yaradır. Dövlətimizin başçısının qeyd etdiyi kimi, “Bizim bütün rayon mərkəzlərində, şəhərlərdə müasir xəstəxanalar var, məktəb tikintisi geniş vüsət almışdır. Düzdür, hələ yararsız vəziyyətdə məktəblər var, amma onların sayı ildən-ilə azalır. Bizim 4 mindən çox məktəbimiz var, bəlkə də bir az az, bir az çox. Onların təqribən deyə bilərəm ki, 80-85, bəlkə də 90 faizi təmir edilib, nə qədər məktəb tikilib. Ona görə bölgələrdə məşğulluğu artırmaq və insanları torpağa daha bağlı etmək üçün biz kənd təsərrüfatının inkişafına yeni təkan verməliyik”.

Kənd təsərrüfatının inkişafı həm də qeyri-neft sektorunun gücləndirilməsi baxımından vacib əhəmiyyət daşıyır. Aqrar sahədə məhsuldarlığın artırılması ixrac imkanlarını genişləndirir, ərzaq təhlükəsizliyini möhkəmləndirir və iqtisadi dayanıqlığı gücləndirir. Müasir texnologiyaların tətbiqi, innovativ yanaşmaların genişləndirilməsi və fermerlərin maarifləndirilməsi bu sahənin gələcək inkişafında əsas amillərdən olacaq.

Kənd təsərrüfatı yalnız iqtisadi sahə deyil, həm də sosial rifahın və milli inkişafın mühüm dayağıdır. Aqrar sahəyə göstərilən dövlət qayğısı bölgələrin inkişafını sürətləndirir, insanların rifahını yüksəldir və uzunmüddətli dayanıqlı inkişaf üçün möhkəm zəmin formalaşdırır. Prezident İlham Əliyevin vurğuladığı fikirlər kənd təsərrüfatının gələcək inkişaf strategiyasının əsas istiqamətlərini müəyyənləşdirir və bu sahənin qarşıdakı illərdə də prioritet mövqeyini qoruyacağını nümayiş etdirir.

* * *

Müasir Azərbaycanın beynəlxalq nüfuzu, iqtisadi qüdrəti və regional liderlik mövqeyi haqqında danışarkən enerji siyasətinin rolunu xüsusi vurğulamaq lazımdır. Son otuz ildən artıq müddətdə həyata keçirilən məqsədyönlü enerji strategiyası təkcə iqtisadi inkişafın deyil, həm də siyasi müstəqilliyin, milli təhlükəsizliyin və beynəlxalq əməkdaşlığın əsas sütunlarından birinə çevrilib. Prezident İlham Əliyevin iyunun 1-də “Bakı Enerji Həftəsi”nin rəsmi açılış mərasimindəki çıxışı bu siyasətin uğurlarını, əldə olunan nəticələri və gələcək perspektivləri nümayiş etdirir.

Bu gün dünyanın aparıcı enerji platformalarından biri hesab olunan “Bakı Enerji Həftəsi”nin əsası 1994-cü ildə keçirilən ilk Xəzər Neft və Qaz Sərgisi ilə qoyulub. Zaman keçdikcə bu sərgi inkişaf edərək daha geniş miqyas alıb və nəticədə çoxsaylı beynəlxalq tədbirləri, konfransları, biznes forumlarını və əməkdaşlıq platformalarını özündə birləşdirən “Bakı Enerji Həftəsi”nə çevrilib. Bu mötəbər tədbir artıq dünyanın müxtəlif ölkələrindən minlərlə nümayəndəni bir araya gətirərək enerji sahəsində qlobal dialoqun mühüm mərkəzlərindən biri kimi çıxış edir.

1996-cı ilin iyun ayında imzalanmış “Şahdəniz” müqaviləsi isə Azərbaycanın qaz strategiyasında yeni dövrün başlanğıcı oldu. Dünyanın ən böyük qaz yataqlarından biri hesab olunan “Şahdəniz” layihəsi sonrakı illərdə təkcə ölkənin deyil, bütövlükdə, Avrasiyanın enerji xəritəsinin yenidən formalaşmasına mühüm təsir göstərdi. Bu gün Azərbaycan qazının beynəlxalq bazarlara çıxarılması və enerji təhlükəsizliyinə töhfə verməsi məhz həmin strateji qərarın nəticəsidir.

Prezident İlham Əliyevin çıxışında vurğulanan məsələlərdən biri də ölkənin makroiqtisadi göstəricilərinin yüksək səviyyədə olması idi. Son

illərdə həyata keçirilən iqtisadi siyasət nəticəsində Azərbaycan regionun ən dayanıqlı iqtisadiyyatı olan ölkələrdən birinə çevrilib. Aparıcı beynəlxalq reytinq agentliklərinin ölkəyə investisiya dərəcəli reytinq verməsi iqtisadi sabitliyin və maliyyə dayanıqlığının beynəlxalq səviyyədə tanındığını təsdiqləyir. Yoxsulluğun 5 faiz səviyyəsinə enməsi, işsizliyin minimum göstəricilər sırasında olması və sosial rifahın yüksəlməsi həyata keçirilən siyasətin real nəticələridir. Maliyyə müstəqilliyinin təmin olunması istiqamətində atılan addımlar nəticəsində bu gün xarici borcun ümumi daxili məhsuldakı payı cəmi 6 faizdən bir qədər çoxdur. Bu göstərici dünyanın ən aşağı borclanma səviyyələrindən biri hesab edilir.

Bütün uğurların əsasında təbii sərvətlərdən səmərəli və düşünülmüş şəkildə istifadə dayanır. Dövlət Neft Fondunda və Mərkəzi Bankda formalaşdırılmış strateji ehtiyatlar bu siyasətin ən mühüm nəticələrindəndir. Hazırda ölkənin strateji ehtiyatları xarici borcu 18 dəfədən çox üstələyir. Bu göstərici iqtisadi təhlükəsizliyin təmin olunması baxımından son dərəcə vacibdir. Belə maliyyə imkanları qlobal iqtisadi dəyişikliklər və enerji bazarlarında baş verən dalğalanmalar fonunda ölkənin dayanıqlığını təmin edir. Eyni zamanda, investorlarla qarşılıqlı faydalı əməkdaşlıq modelinin yaradılması enerji sektoruna böyük həcmdə xarici sərmayələrin cəlb edilməsinə imkan verib. Milli maraqlara söykənən praqmatik siyasət nəticəsində həm investorlar, həm də dövlət üçün faydalı olan əməkdaşlıq mühiti formalaşdırılıb.

Enerji strategiyasının ən mühüm nəticələrindən biri ölkənin hərbi-siyasi və iqtisadi qüdrətinin əhəmiyyətli dərəcədə artmasıdır. Enerji layihələrindən əldə olunan gəlirlər hesabına müasir infrastruktur yaradıldı, sosial layihələr həyata keçirildi, regionların inkişafına böyük vəsait yönəldildi. Bununla

yanaşı, güclü müdafiə potensialının formalaşdırılması üçün də zəruri maliyyə imkanları yaradıldı. Vətən müharibəsində qələbənin əsasında ilk növbədə xalqın iradəsi, vətənpərvərlik ruhu və ordunun peşəkarlığı dayanırdı. Lakin müasir ordu quruculuğu üçün güclü iqtisadi baza da mühüm amillərdən biri idi. Dövlətimizin başçısının qeyd etdiyi kimi, “Biz cəmi 44 gün ərzində Ermənistanı tamamilə məğlub etdik və kapitulyasiya aktını imzalamağa məcbur etdik. Əlbəttə ki, müharibədə qələbə dedikdə, sadəcə, pul və hətta silahlar nəzərdə tutulmur. Söhbət döyüş ruhundan gedir. Lakin gəlin etiraf edək, ordunu qurmaq üçün pulumuz olmasaydı, yəqin ki, bu gün hələ də torpaqlarımız işğal altında olardı. Beləliklə, Azərbaycanın inkişafı, istər sosial, iqtisadi, hərbi, istərsə də xarici siyasət olsun, bütün bunlar onu nümayiş etdirir ki, təbii sərvətlərdən düzgün istifadə olunan zaman onlar bir çox üstünlüklərə yol aça bilər”.

Müasir dövrdə enerji təhlükəsizliyi qlobal gündəliyin əsas mövzularından biridir. Dünyanın müxtəlif bölgələrində baş verən geosiyasi hadisələr enerji təchizatının etibarlılığını daha da ön plana çıxarır. Belə şəraitdə Azərbaycan etibarlı tərəfdaş və məsuliyyətli enerji təchizatçısı kimi xüsusi əhəmiyyət daşıyır. Son onilliklər ərzində həyata keçirilən irimiqyaslı layihələr bu sahədə möhkəm infrastruktur formalaşdırıb. Bakı–Supsa kəməri isə Xəzər neftinin Qara dəniz vasitəsilə dünya bazarlarına çıxarılmasına imkan yaratdı. Bakı–Tbilisi–Ceyhan neft kəməri Xəzər hövzəsini Aralıq dənizi ilə birləşdirən ilk strateji enerji marşrutu oldu. Daha sonra Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP layihələrinin reallaşdırılması ilə 3500 kilometr uzunluğunda Cənub Qaz Dəhlizi sistemi yaradıldı. Bu gün həmin sistem Avropanın enerji təhlükəsizliyinin əsas komponentlərindən biri kimi çıxış edir.

Prezident İlham Əliyevin çıxışında diqqət çəkən mühüm məqamlardan biri də qaz ixracı coğrafiyasının genişlənməsi olub. Bir il əvvəl Azərbaycan qazını 12 ölkə alırdısa, hazırda bu rəqəm 16-ya yüksəlib. Həmin ölkələrin 10-u Avropa İttifaqının üzvüdür. Bu fakt Azərbaycanın Avropanın enerji xəritəsində tutduğu strateji mövqenin göstəricisidir. Hazırda bir sıra Avropa dövlətləri enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycan qazına xüsusi önəm verir. Gələcəkdə “Azəri-Çıraq-Günəşli” dərin qaz layihəsi, “Abşeron” yatağı və digər perspektivli layihələr hesabına hasilatın daha da artırılması nəzərdə tutulur. Bu amillər həm ixrac imkanlarının genişlənməsinə, həm də qlobal enerji təhlükəsizliyinə verilən töhfənin artmasına şərait yaradacaqdır.

Azərbaycan bu gün yalnız enerji istehsalçısı deyil, həm də mühüm tranzit ölkədir. Xəzər dənizinin şərq sahilində yerləşən tərəfdaş dövlətlərlə əməkdaşlıq regionun enerji və nəqliyyat imkanlarını daha da genişləndirir. Hazırda Mərkəzi Asiyadan hasil olunan neft Azərbaycan ərazisi vasitəsilə beynəlxalq bazarlara çıxarılır. Bu əməkdaşlıq Avrasiya məkanında iqtisadi inteqrasiyanın güclənməsinə xidmət edir. Yaxın gələcəkdə təbii qaz sahəsində də analoji əməkdaşlıq mexanizmlərinin formalaşması mümkündür. Bu amil ölkəmizin Avrasiya enerji məkanında strateji əhəmiyyətini daha da artıracaqdır.

Son otuz il ərzində həyata keçirilən enerji siyasəti iqtisadi tərəqqinin, sosial rifahın, hərbi qüdrətin və beynəlxalq nüfuzun əsas mənbələrindən biri olub. Bu siyasət nəticəsində Azərbaycan qlobal enerji bazarında etibarlı tərəfdaş, Avropanın enerji təhlükəsizliyinin mühüm təminatçısı və regionun aparıcı iqtisadi mərkəzlərindən birinə çevrilib. Yeni qaz yataqlarının istismarı, yaşıl enerji layihələrinin genişləndirilməsi, beynəlxalq enerji

marşrutlarının inkişafı və Mərkəzi Asiya ilə əməkdaşlığın dərinləşdirilməsi qarşıdakı dövrdə də Azərbaycanın qlobal enerji sistemində rolunu daha da gücləndirəcəkdir.

**Ceyhun Məmmədov.** Azərbaycanın enerji strategiyası regional və qlobal təhlükəsizliyə mühüm töhfə verir. ABŞ Prezidenti Donald Tramp, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Böyük Britaniyanın Baş naziri Kir Starmerin "Bakı Enerji Həftəsi" iştirakçılarına müraciətlər ünvanlaması tədbirin əhəmiyyətini, eləcə də Azərbaycanın nə qədər önəmli və xüsusi mövqeyə malik olduğunu bir daha göstərdi. Bu müraciətlər Azərbaycanın beynəlxalq tərəfdaşlarla qurduğu münasibətlərin və ölkəmizin artan nüfuzunun göstəricisidir. Bu gün Azərbaycan Qərbin enerji təhlükəsizliyində mühüm rol oynayır, etibarlı tərəfdaş və strateji müttəfiqlərdən biri kimi qəbul edilir.

Onu da qeyd edək ki, Azərbaycanın enerji strategiyası təkcə ölkənin iqtisadi inkişafına deyil, həm də regionun və Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verir. Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyində çox mühüm rol oynayır. Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyində tutduğu mövqe və həyata keçirdiyi fəaliyyətlərin qlobal enerji təhlükəsizliyi baxımından xüsusi əhəmiyyəti var. Bu rol gündən-günə daha da möhkəmlənir və artır. Müxtəlif dövrlərdə neft və qaz layihələrindən əldə olunan gəlirlər Azərbaycanın inkişafına yönəldilib. Bu siyasətin əsasını Ümummilli Lider Heydər Əliyev qoyub, daha sonra isə Prezident İlham Əliyev bu siyasəti uğurla davam etdirib.

Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanın çox zəngin, böyük günəş enerjisi, külək enerjisi potensialı var. Artıq Qarabağda və digər ərazilərdə bu istiqamətdə çox ciddi layihələr həyata keçirilir. Bu, həm

də ekoloji baxımdan önəmlidir. Burada ən vacib məsələ isə odur ki, getdikcə dünyamızda daha çox elektrik enerjisinə tələbat olacaq. Azərbaycan dəniz vasitəsi ilə bu enerjinin ixracını planlaşdırır. Bu, həm ekoloji, həm xərclər, həm də ölkəmizə əlavə vəsaitlərin cəlbi baxımından olduqca önəmli bir məsələdir. Bu gün biz neft-qaz ixracından vəsait qazanırıq. Biz gələcəkdə yaşıl enerji əsasında Azərbaycanın istehsal etdiyi elektrik enerjisini də artıq xaricə ixrac edəcəyik.

Danılmaz faktdır ki, bu gün Azərbaycan enerji kapitalını, neft kapitalını insan kapitalına çevirə bilən azsaylı ölkələrdən biridir. Bu, Azərbaycanın tarixi uğuru və tarixi nailiyyətidir. Dünyanın bir çox ölkələri bu uğuru yüksək qiymətləndirir və dəyərləndirirlər. Azərbaycan bu prosesə özünün çox vacib və mühüm töhfəsini verir, bu istiqamətdə uzaqgörən və ardıcıl müstəqil siyasət həyata keçirir, mühüm tədbirlər görür. Bu, həm ölkəmizin nüfuzunu gücləndirir, həm də dövlətimizin bu sahədə inkişafını təmin edir. Eyni zamanda, Azərbaycanın dünyadakı mövqeyini daha da gücləndirir və möhkəmləndirir. Bu gün Azərbaycanın atdığı addımlar və həyata keçirdiyi tədbirlər məhz buna hesablanıb. Təbii ki, burada uzaqgörən və müdrik siyasətin rolu böyükdür.

**Elçin Mirzəbəyli.** Bu gün dünyada korrupsiyaya qarşı mübarizənin fəlsəfəsi ciddi şəkildə dəyişib. Əvvəllər diqqət daha çox baş vermiş hüquqpozmaların aşkar edilməsinə və cəzalandırılmasına yönəlirdisə, müasir idarəetmə sistemlərində əsas məqsəd korrupsiya risklərini öncədən müəyyən etmək və onların qarşısını almaqdır. Məhz bu baxımdan, təqdim olunan dəyişikliklər önləyici, xüsusi əhəmiyyət daşıyır və korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı mexanizmləri gücləndirir. Bu isə dövlət idarəçiliyində daha sağlam, daha şəffaf və daha dayanıqlı mühitin

formalaşmasına xidmət edir.

Layihənin ən mühüm xüsusiyyətlərindən biri korrupsiya ilə bağlı məlumat verən şəxslərin müdafiə mexanizmlərinin gücləndirilməsidir. Qanun layihəsində korrupsiya ilə bağlı məlumat vermiş şəxslərin attestasiyası zamanı maraqların toqquşmasının qarşısını alan mexanizmlər nəzərdə tutulur, eyni zamanda, belə şəxslərə qarşı qisas məqsədi ilə tətbiq oluna biləcək tədbirlərin qarşısının alınması üçün əlavə hüquqi təminatlar yaradılır.

Bu, son dərəcə vacib yanaşmadır. Çünki dövlət qulluqçusu bilməlidir ki, qanunun aliliyinə xidmət etdiyi və hüquqpozma barədə məlumat verdiyi halda o, cəzalandırılmayacaq, əksinə, qorunacaq. Bu, həm peşəkar dövlət qulluğunun inkişafı, həm də sağlam idarəçilik mühitinin formalaşdırılması üçün vacib şərtdir.

Bu dəyişikliklərdən sonra etik davranış, maraqların toqquşması, qanunsuz təkliflər və digər oxşar məsələlər üzrə qərarların verilməsi birbaşa rəhbərlərin subyektiv mövqeyindən daha az asılı olacaq və qanunla müəyyən edilmiş səlahiyyətli struktur bölmələrin məsuliyyəti artacaq. Bu isə idarəetmədə obyektivliyi gücləndirən mühüm amildir.

Azərbaycan korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq konvensiyalardan və qabaqcıl təcrübədən irəli gələn öhdəliklərini ardıcıl şəkildə yerinə yetirir. Təklif olunan dəyişikliklər də milli qanunvericiliyin müasir beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində atılan növbəti addımlardan biridir. Bu baxımdan, layihə həm milli maraqlara, həm də ölkəmizin üzərinə götürdüyü beynəlxalq öhdəliklərə tam uyğundur. Eyni zamanda, hesab edirəm ki, qanun layihəsi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət idarəçiliyinin təkmilləşdirilməsi,

şəffaflığın artırılması və hesabatlılığın gücləndirilməsi siyasətinin tərkib hissəsi kimi də qiymətləndirilə bilər.

Dövlət qanunsuzluğu gizlədənləri deyil, onun qarşısını almağa çalışanları müdafiə etdikdə hüququn aliliyi, ictimai etimad, dövlət idarəçiliyinin keyfiyyəti daha da güclənir. Təqdim olunan dəyişikliklər məhz bu məqsədlərə xidmət edir və buna görə də qanun layihəsini dəstəkləyirəm.

**Günay Əfəndiyeva.** Bu gün üçüncü oxunuşu keçirilən “Diplomatik xidmət haqqında” Qanuna dəyişikliklə bağlı layihə Azərbaycanın xarici siyasətinin inkişafına töhfə verən insanların – bizim diplomatlarımızın fəaliyyətinə dövlətimizin mühüm dəstəyini nümayiş etdirir.

Diplomatik xidmət ölkənin milli maraqlarının qorunması və etibarlı şəkildə təmsil olunması üçün fədakarlıq tələb edən bir peşə sahəsidir. Ona görə də diplomatlarımızın və onların ailə üzvlərinin rifahının daha da yaxşılaşdırılması bu missiyanın effektivliyi və davamlılığı üçün olduqca vacib bir addımdır.

Bu günlərdə müstəqilliyimizin 108 illiyi fərqli qitələrdə – Şimali Amerikada, Latın Amerikasında, Avropada, Asiyada, Afrikada diplomatlarımızın aktiv təşkilatçılığı ilə qeyd olundu. Müxtəlif ölkələrdə dövlət rəsmilərinin iştirakı ilə keçirilən silsilə tədbirlərdə milli mədəniyyətimiz, musiqimiz, incəsənətimiz, xalçaçılığımız, milli mətbəximiz geniş auditoriyalara təqdim edildi.

Ölkəmizin zəngin dövlətçilik irsi, mədəni siması tanıdılarkən, eyni zamanda, diplomatik gücü də sərgiləndi. Şübhəsiz ki, Azərbaycanın uğurlu xarici siyasəti cənab Prezidentin formalaşdırdığı beynəlxalq nüfuz üzərində gündən-günə daha da yüksəlməkdədir.

Qısa müddət əvvəl Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası, 31-ci "Bakı Enerji Həftəsi" kimi qlobal miqyaslı mötəbər tədbirlər bizim beynəlxalq əlaqələrimizin ən üstün səviyyəsini ifadə edir.

Digər tərəfdən, son dövrlərdə regionda baş verən mürəkkəb hadisələr fonunda dövlətimiz yaxın qonşuluqda yaranmış çətin şəraitdə bəzən münasibətlərdən asılı olmayaraq, müxtəlif ölkələrin vətəndaşlarının təhlükəsiz şəkildə təxliyə edilməsi prosesində mühüm rol oynadı. Azərbaycan diplomatiyasının universal dəyərlərə sadiq, humanist xarakteri bir daha öz təsdiqini tapdı.

Ölkəmiz nəinki qonşu ölkələrə, ümumiyyətlə, ehtiyacı olanlara hər zaman yardım əlini uzadır. Çünki Azərbaycanın humanitar siyasəti səmimiyyət siyasətidir. İnsan amilinə, həyatların xilas edilməsinə əsaslanır.

Cənab Prezidentin müəyyən etdiyi dövlətimizin siyasi kursunun dünya miqyasında icra olunması və təşviqi diplomatlarımızın üzərinə düşən çox mühüm vəzifədir. Onların əksəriyyəti uzun illər vətəndən uzaqda, qürbətdə yaşayaraq bu məsuliyyətli xidməti yerinə yetirir. Ona görə də qəbul edəcəyimiz qanun layihəsinə böyük məmnuniyyətlə səs verəcəm.

**Sahib Alıyev.** Ermənistanda artıq başa çatmaq üzrə olan seçki kampaniyasında öz ölkələrindən çox Azərbaycanın adının çəkildiyini və azərbaycanlılara yanaşmada səsləndirilən bəzi açıqlamaları nəzərə alaraq, bir neçə kəlmə fikir bildirmək istəyirəm. Öncə onu deyim ki, bu seçkinin necə bitəcəyinə ən çox təsir göstərən nə kimlərinsə hibrid müdaxiləsi, nə də bu hibrid müdaxilənin qarşısını almağa çalışanların Nikol Paşinyana açıq dəstəyidir. 7 iyun seçkisinin gündəliyini olduğu kimi, nəticəsini də müəyyənləşdirəcək bir nömrəli faktor, cənab Prezidentin təbirincə desək,

bütün ssenarilərə hazır olan güclü Azərbaycandır. Ona görə də seçki kampaniyası boyu rəqibləri Paşinyanı Azərbaycanın diktəsi ilə hərəkət etməkdə, o isə qarşı tərəfi ölkəni yeni savaşa sürükləmək və beləliklə, xəritədən silinmək təhlükəsi ilə üz-üzə qoymaqda suçlandırırdı. Burada istər-istəməz sual yaranır: əgər Azərbaycan Ermənistandan qat-qat güclü olmasaydı, bizimlə sülh gündəliyini populist Paşinyan özünün əsas seçki platformasına çevirərdimi? Elektoratı rəqibləri hakimiyyətə gələcəyi təqdirdə yenidən savaşın başlayacağı ilə qorxudardımı?

Mən bu sualı elə-belə səsləndirmirəm. Azərbaycandilli virtual mühitdə Nikol Paşinyanın tökülən qanları görüb ayılması və məhz bundan sonra bizimlə düşmənçiliyin onlara lazım gəlmədiyini anlaması haqda açıqlamalarının, eləcə də parlamentin sədri Alen Simonyanın təqribən eyni məzmunlu fikirlərinin necə böyük həvəslə təqdir edildiyini və artıq hər şeyin arxada qaldığı təəssüratı yarandığını, yaxud da yaradıldığını görürəm. Yəni qarşıdakının kimliyi unudulur. Elə son açıqlamasında Alen Simonyan bildirir ki, o, ikinci Qarabağ savaşı zamanı Azərbaycanın qarşısını kəssinlər deyə, Moskvaya ayaq öpməyə gedibmiş. Bu “ayaq öpmək” onun öz sözüdür, mənim deyil. Yaxşı, birdən o ayaq öpməyə getdiyi yerdəkilər 1990-cı illərin əvvəlindəki kimi, onların yerinə vuruşmağa razı olsaydılar, Paşinyanla Simonyanın bizə yanaşmaları Köçəryanla Karapetyanınkından çoxmu fərqlənəcəkdi? Paşinyan həmin Köçəryanla Karapetyanı Ermənistandan deportasiya olunan azərbaycanlıların yurdlarına qayıdış məsələsini siyasi gündəmə çıxarmaqda ittiham edir. Bu baxımdan, o, düz 600 il azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirmək arzusu ilə yaşadıqlarını etiraf edən keçmiş ustadı, nasist Levon Ter-Petrosyanı təkrarlamırmı?

Ümumiyyətlə, məqsədə çatmaq üçün ayaq öpməyi özlərinə rəva bilənlər və bunu utanmadan dilə gətirənlər Azərbaycanla sülhə əlacsızlıqdan yaranan bir zərurət, həm də müvəqqəti bir zərurət kimi baxmırlarsa, əlaltından niyə silahlanır və münaqişənin ilk qurbanlarının öz yurdlarına dönüşünə nədən bu qədər qarşı çıxırlar?